# AZƏRBAYCAN MAYASI NUR, QAYƏSİ NUR Kİ... HƏR DAŞINDAN ALOV DİLLİ OX OLA BİLƏR!

Bu bir xalq qəzetidi
ƏDALƏT

## Azərbaycanda qismən səfərbərlik elan edildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında sərəncam imzalayıb.**

Adalet.az-ın məlumatına görə, sərəncamda deyilir:

”1. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilsin.

2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir”.

## *Erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində iki məktəbli həlak olub*




**Erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində iki məktəbli həlak olub.**

Təhsil Nazirliyindən Adalet.az-a verilən məlumata görə, sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində bütöv bir ailə həlak olub:

"Təəssüflə qeyd edirik ki, bu təcavüz nəticəsində həlak olanlardan ikisi məktəblidir. 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin şagirdləridir.

Ötən gündən başlayaraq Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını kobudcasına pozur.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Ermənistanın təcavüzü nəticəsində həyatını itirmiş bütün həmvətənlərimizin, o cümlədən Naftalan şəhərində bütöv bir ailənin və şagirdlərimizin həlak olmasından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir".

## Vilayət Eyvazov komendant təyin edildi



**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ”Hərbi vəziyyət elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə qərara alıram:**

Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Süleyman oğlu Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edilsin.

*Emin Piri*

## Xalq Ali Baş Komandanla birlikdədir

Bax:səh-3

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

## PREZİDENTİMİZ ERMƏNİLƏRİN KİMLİYİNİ DÜNYAYA GÖSTƏRDİ

Bax:səh-2

## “Düşməni sona qədər məhv etmək uğrunda vuruşacağıq”

**Düşmən hücumunun qarşısının alınması məqsədilə həyata keçirdiyimiz əks-hücum əməliyyatı uğurla davam edir.**

Bunu Hərbi birliyin komandiri general-mayor Mayis Bərxudarov deyib. O bildirib: ”Düşmən hücumunun qarşısının alınması məqsədilə həyata keçirdiyimiz əks-hücum əməliyyatı uğurla davam edir. Gərgin döyüşlər gedir. Ordumuz torpaqlarımızın işğaldan azad edilməsi üzrə tapşırıqları yüksək döyüş əzmi və igidliklə icra edir.

Komandirlik etdiyim birliyin şəxsi heyəti düşməni tam məhv etmək üçün son damla qanınadək vuruşacaq və qələbə qazanacaq”.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 132 (5792) 29 sentyabr 2020-ci il | Qiyməti 30 qəpik

# Düşmənə sonuncu xəbərdarlıq

**Sentyabrın 28-i səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhəri atəşə tutulur. Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.**

**Müdafiə Nazirliyinin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edir ki, tərəfimizdən onlara qarşı adekvat cavab tədbirləri görüləcək.**




*Məmməd Araz*

## Ayağa dur, Azərbaycan!



**Nə yatmısan, qoca vulkan, səninləyəm!**
**Ayağa dur, Azərbaycan, səninləyəm!**

**Səndən qeyri biz hər şeyi bölə billik!**
**Səndən qeyri biz hamımız ölə billik!**
**Bu, Şəhriyar harayıdı,**
**Bu, Bəxtiyar harayıdı!**
**Hanı sənin tufan yıxan,**
**Gurşad boğan yurda oğul**
**oğulların!**
**Qara Çoban, Dəli Domrul oğulların.**
**Çək sinənə-qayaları yamaq elə,**
**Haqq yolunu ayağına dolaq elə,**
**Bayrağını Xəzər boyda bayraq elə,**
**Enməzliyə qalxmış olan bayrağını!**
**Azərbaycan, Azərbaycan,**
**Azərbaycan bayrağını!**
**Ayağa dur, Azərbaycan!**
**Bunu bizə zaman deyir,**
**Məzarından baş qaldıran baban deyir!**
**Nər oğlu nər, səninləyəm!**
**Səninləyəm, silah tutan,**
**Külüng tutan, yaba tutan,**
**Kösöy tutan, nişanlı ər, səninləyəm!**
**Səninləyəm, qız atası,**
**Hanı nərən, hanı səsin!**
**Hanı andın!**

**Yoxsa sən də yatmışlara, batmışlara,**
**Qeyrətini satmışlara xırdalandın!!!**
**Gözünü sil, Vətən oğlu, ayağa qalx!**
**Üfüqünə bir yaxşı bax.**
**Sərhəddinə bir yaxşı bax.**
**Sərhəddinin kəməndinə bir yaxşı bax!**
**Dur, içindən qorxunu boğ,**
**Ölümünlə, qalımını ayırd elə.**
**Dur, içindən qorxağı qov,**
**Dur, özünü Bozqurd elə!**

**Bir səsindən min səs dinər,**
**Neçə-neçə daşa dönmüş dinməz dinər!**
**Oddan bitər, qandan bitər əyilməzlər!**
**Mərd oğullar-mərdliyilə öyünməzlər!**
**Torpaq altda ölümlüyə gömülməzlər.**

**Varım, yoxum, səninləyəm,**
**Azım, çoxum, səninləyəm,**
**Şirin yuxum, səninləyəm.**
**Yıxın məni söz atından,**
**Atın məni tank altına.**
**Əzin məni xıncım-xıncım,**
**Kəsmir əgər söz qılıncım,**
**Didin məni didim-didim,**
**Atın məni tank altına.**
**Qundaqdakı bir körpəni xilas edim.**
**Neçə ”səni”, neçə ”məni” xilas edim.**

**Səninləyəm,**
**Sözü qəmli, özü dəmli rəhbər adam!**
**1918-də vuruşurdu,**
**Danışmırdı rəncbər atan, rəncbər atam!**
**Səninləyəm, haqq-ədalət, səninləyəm,**
**Milli qürur, milli qeyrət, səninləyəm!**
**Səpil quma, göyər yerdə, bit qayada,**
**Gizli nifrət, açıq nifrət, səninləyəm,**

**Oyat bizi, ey yaradan, səninləyəm!**
**Ya bilmərrə yatırt bizi,**
**Ya bilmərrə oyat bizi,**
**Ya yenidən yarat bizi,**
**Ey yaradan, səninləyəm,**
**Səninləyəm, yatmış vulkan,**
**Səninləyəm!**
**Ayağa dur, Azərbaycan,**
**Səninləyəm!**

## QARAÇI FİLANINI TƏRİFLƏYƏN KİMİ





**Bütün mətbuat yazır ki, ermənilər Livandan, Suriyadan, eləcə də İraqdan PJK və PYD terror təşkilatlarının üzvlərini gətirib Dağlıq Qarabağda yerləşdirir. Və bu terrorçuları bizimlə döyüşə hazırlayır.**

92-93-cü illərdə Ermənistan ASALA başda olmaqla belə terror təşkilatlarını Qarabağa gətirirdi. Hətta dünyanın ən məşhur terrorçusu Monte Melkumyan da həmin terror təşkilatlarına rəhbərlik edirdi. Yəni bu terror təşkilatlarıyla birinci dəfə qarşılaşmırıq.

Həmin terror təşkilatlarının yuvası Ağdərə idi. Biz həmin təşkilatların yuvası olan Ağdərəni işğaldan azad elədik və həmin terrorçuları da püskürtdük.

Dünyanın ən məşhur terrorçusu Monte Melkumyanın da başını İbad Hüseynov kəsdi.

Bizi belə terror təşkilatları ilə qorxutmasınlar. Azərbaycanın hər bir əsgəri belə terrorçulardan on dəfə güclüdü, qeyrətlidi və sair və ilaxır.

Döyüşlər göstərir ki, Ermənistanın ordan- burdan yığıb gətirdiyi həmin terror dəstələri Azərbaycan əsgərinin qabağından qaçır.

**Allah Azərbaycan əsgərini qorusun!**

*Nazım Hikmet*

## Güneşi İçenlerin Türküsü

**Şəhidlərin**
**çiyinlərinə kalkarak yüksəliyoruz**
**vaxtımız yok,**
**onları basdırmağa.**
**Günəşi zapt edəcəyiz,**
**Günəşin zapti yakın!**

Bax:səh-2

## ÇOXQOHUMLU BƏXTƏVƏRLƏR!

**Deməli, belə. Abdal Qasım eşşəyin belində bəyin evinin qabağından keçəndə deyir:**

**- Toş, toş, a bəy, toş, toş!**

**Bunu eşidən bəyin nökər- naibləri tökülür Qasımı döyürlər.**

**Qasım durur, üstünün toz-torpağını təmizləyib deyir:**

**- Toş, toş, a çox qohumlu bəxtəvər, toş, toş!**

**İndi baxıram ”bəxtvər” ermənilərin Azərbaycanda nə çox qohumları varmış.**

## BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLAR TUMANLARINI BAŞLARINA KEÇİRİB

***Azərbaycanın bütün cəbhə boyu həyata keçirdiyi əks-hücumla Ermənistan ordusunu geri oturtması və torpaqlarımızı geri qaytarması beynəlxalq təşkilatları çox bərk narahat edib. Hamısı bəyanat verir ki, döyüşləri saxlayaq və danışıq stolu arxasında oturaq.***

***Əvvəla, 27 ildir danışırıq və danışmaqdan çənəmiz ağrıyır.***

***İkincisi, Ermənistan ordusu Azərbaycan xalqının dinc əhalisini qıranda, soyqırım törədəndə harda sülənirdiniz, niyə səsiniz çıxmırdı? Eləcə də Qarabağ ərazisində deyil, Tovuzla sərhəd bölgəsində kəndlərimizi atəşə tutanda niyə bir bəyanat vermirdiniz ki, Ermənistan, atəşi saxla?***

***İndi bizim zəfər yürüşlərimizi görüb tumanınızı başınıza keçirirsiniz.***

***Təkcə iki gündə rəsmi məlumata görə, Azərbaycanın 6 nəfər dinc əhalisi həlak olub, 19 nəfər yaralanıb, onlarla evə də zərər dəyib və sair və ilaxır.***

***Ən pisi bu oldu ki, ATƏT-in harınlamış həmsədrləri belə getsə, ac qalacaq.***

## *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## GÜNÜN LƏTİFƏSİ

Erməni Aşotla gürcü Vano almanlardan qaçıb gizlənirlər.

Hərəsi bir quyuya girir. Almanlar Aşotu tapırlar, əsir götürüb aparırlar.

Aşot Vanonun gizləndiyi quyunun yanından keçəndə deyir:

**- Vano, çıx, bizi tapdılar.**

# Ali Baş Komandan: "Biz zəfər çalacağıq"



**"Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Ermənistan ordusunun bizim torpağımızda nə işi var?"**

Bunu Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhədə yaranan gərgin vəziyyətlə əlaqədar xalqa müraciət edərkən deyib.

Prezidentin sözlərinə görə, heç kəs üçün sirr deyil ki, dırnaqarası Dağlıq Qarabağ ordusunun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir.

Ali Baş Komandan Azərbaycan Ordusunun zəfər çalacağını da vurğulayıb.

"Ermənistan işğalçı dövlətdir. Bu işğala son qoyulmalıdır və qoyulacaq. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", - deyə İlham Əliyev bildirib.

# İlham Əliyev: "Əgər bizim istəyimiz olsaydı, Ermənistan ərazisinə hərbi döyüşləri keçirə bilərdik"

**Son zamanlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alıb.**

Bunu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhə vəziyyətində yaranmış vəziyyətlə əlaqədar xalqa müraciətində deyib.

Prezident xatırladıb ki, bu ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatları zamanı Azərbaycan hərbçiləri şəhid olub, bir mülki vətəndaş həlak olub.

"Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıb. İlk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olub. Azərbaycan düşmənə layiqli cavabını verdi və Ermənistan bir santimetr də irəli gedə bilmədi", - deyə İlham Əliyev bildirib.

Dövlət başçısı qeyd edib ki, sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı.

"Mən bu barədə demişəm, bir də demək istəyirəm. Əgər bizim istəyimiz olsaydı, Ermənistan ərazisinə hərbi döyüşləri keçirə bilərdik", - deyə Ali Baş Komandan söyləyib.

Sentyabrın 27-də, saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Bununla bağlı Müdafiə Nazirliyi məlumat yayıb.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var.

Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

Məlumata görə müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

# "Şəhidlərin qanı yerdə qalmayacaq"

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəbhədəki vəziyyətlə əlaqədar Azərbaycan xalqına müraciət edib.**

Prezident İlham Əliyev bilidirib ki, bu gün səhər saatlarında Ermənistan Azərbaycanın yaşayış məntəqələrini, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.

Prezident deyib ki, düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var.

"Allah şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq",-deyə Prezident əlavə edib.

Ali Baş Komandan vurğulayıb ki, Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir:

"Bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxarılıb".

# PREZİDENTİMİZ ERMƏNİLƏRİN KİMLİYİNİ DÜNYAYA GÖSTƏRDİ

## Gerçəyi gizlətmək heç vaxt mümkün olmur

**Bu gün dünyanın ən qlobal problemlərindən biri təbii ki, COVİD-19-dur. Təbii ki, bu, bütün dünyanın problemi olmaqla bahəm, həm də Azərbaycanın özünün də artıq 1988-ci ilin fevralından başlamış Qarabağ problemi var. Özü də bu problem zaman-zaman beynəlxalq güclərin laqeydliyi və bəlkə də müəyyən göz yummaları hesabına Qarabağ problemi artıq beynəlxalq müstəviyə çıxıb.**

Bununla bağlı BMT-nin məlum 4 qətnaməsi də qəbul olunub. Üstəlik, bu problem ən yüksək səviyyələrdə, ən böyük auditoriyalarda, arenalarda müzakirə edilibdi. Çox təəssüf ki, nə BMT-nin bəlli 4 qətnaməsinin, nə də beynəlxalq müzakirələrin çözümündə heç bir faydası olmayıb. İşğalçı dövlət, yəni Ermənistan bütün məlum qətnamələri, müzakirələri saymazyana şəkildə rədd edib və öz işğalçı siyasətini bu gün də davam etdirməkdədi. Özü də bu həyasızlığı o, problemi çözmək missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun gözləri önündə edirlər. Minsk qrupu da öz növbəsində susqunluq, görməməzlik nümayiş etdirməkdədir. Ən yaxşı halda regiona onların mənasız, əslində özlərinin varlıqlarını göstərmək xarakterli səfərləri və sonda da həmişəki şəkildə, həmişəki məzmunda bəyanatları ilə gündəmdə olurlar, özü də qısa müddətli.

Söylədiyim bu məqama özünün son çıxışlarında birmənalı şəkildə toxunan Azərbaycan prezidenti cənab İlham Əliyev vurğulamışdı ki, **"Bütün bunlar göstərir ki, Ermənistan tərəfi birmənalı şəkildə danışıqlar prosesini süni qaydada davam etdirmək və öz istəklərinə çatmaq yolunu tutublar. Amma biz danışıqlar xatirinə danışıqlar aparmağın əleyhinəyik. Və bir daha bildiririk ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik".** Ölkə başçısı özünün Azərbaycan xalqına olan güvənini, inamını və xalqın da öz prezidentinə olan etimad və etibarını dilə gətirərək onu da bildirmişdi ki, **"Özümüz özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Xalqımız bilməlidir ki, bu gün Ermənistanla danışıqlar getmir. Çünki Ermənistan iqtidarının siyasi cəhətdən qüsurlu və ziyanlı bəyanatları danışıqlar üçün yer qoymur".**

Bax, əsl həqiqət budur. Və bu həqiqəti də Azərbaycan prezidenti cənab İlham Əliyev bütün dünya ictimaiyyətinə açıq şəkildə bəyan edibdi. Xalqımız, o cümlədən də bu ölkənin sıravi vətəndaşlarından biri kimi mən də bu gerçəkliyə görə, öz Prezidentimə, Ali Baş Komandanıma minnətdaram. Zaman-zaman prosesləri izləmiş, bəzən də



şahidinə çevrilmiş vətəndaş olaraq görmüşəm ki, işğalçı Ermənistan bütün vasitələrlə öz yalanını gizlətməyə, öz işğalını pərdələməyə çalışıbdır. Hələ 1988-ci ilin fevral ayından başlayaraq, Ermənistan və hadisələrin ilhamvericisi olan Moskva sülh danışıqlarını əldə bayraq etməyə, əsl həqiqətdə isə bu danışıqlarda işğal üçün bir vasitə kimi yararlanmağa çalışmışdı. **"Sovet dönəmində Kremlin, xüsusilə SSRİ- prezidenti Qorbaçovun atdığı addımlar Qarabağda yaratdığı xüsusi idarə ermənilərə əl-qol açmaq üçün yaradılmış şərait idi. Bu cür yanaşmaların nəticəsində də Ermənistan silahlanmağa və daha böyük iddialarla çıxış etməyə başladı. Ona görə də Azərbaycan Prezidentinin çıxışında birmənalı şəkildə göstərilir ki, Ermənistan təcavüzkar dövlətdir, üstəlik də Ermənistan terrorizmə sponsorluq edən ölkədir".**

Bu gerçəyi hər kəsə birmənalı şəkildə çatdıran Azərbaycan prezidenti bəlli reallığı şərh edərkən ölkəmizin mövqeyini də diqqətə təqdim edib və həm beynəlxalq aləmə, həm də birmənalı şəkildə ATƏT-in Minsk qrupuna mesaj verib. Bu mesajda cənab İlham Əliyev bildirib ki, **"Bizə qarşı ciddi təxribat törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq. Artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur".** Ali Baş Komandanın bu kəskin mesajı bir daha göstərir ki, Azərbaycan xalqı öz prezidentinin yanındadır və Ali Baş Komandan "danışıqlar xatirinə danışıqlar"dan imtina etməyin vaxtı çatdığını, əvəzində isə onun özünün də dediyi kimi, **"Ermənistan beynəlxalq hüququ yerə vurursa, Azərbaycan da beynəlxalq hüququ gözləməyəcək"** məqamının yetişdiyini dünyaya bildirmişdir. Görünür, bu sərt açıqlamalar, məsələyə kəskin münasibətlər artıq həm Ermənistanın, həm də ona havadarlıq edənlərin kürkünə birə salıb.

Mətbuatdan məlum olduğu kimi, son günlərdə Ermənistan tərəfi danışıqları bərpa etməyə hazır olduğunu açıqlayıb. Moskvada Azərbaycan Parlamentinin sədri ilə görüşən Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirmişdi ki, **"Rusiya Azərbaycanın işğal olunmuş 5 rayonunun qaytarılmasına tərəfdardır".** Bu da o deməkdir ki, həm işğalçını, həm də onun güvəndiyi gövlətləri Azərbaycan ordusunun gücü artıq narahat edir. Ordumuzun gücünə həm Füzuli istiqamətində, yəni 2016-cı ilin aprelində, həm də bu ilin Tovuz istiqamətində olan döyüşündə bələd olan düşmən vəziyyətin ciddiliyinə yəqin ki, inanmağa başlayıb. Üstəlik, Ali Baş Komandanın bu mesajı da öz təsirini göstəribdi. Yəni cənab İlham Əliyev vurğulayıb ki, **"Əgər ermənilər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq".**

Tarixi prosesləri diqqət mərkəzində saxlayan hər kəs onu da yaxşı bilir ki, bu gün torpaqlarımızı işğal etmiş düşmən xarici güclərin həm silah-sursatından, həm də onların muzdlu döyüşçülərindən yararlanır. Heç kimə sirr deyil ki, Ermənistana daha çox Rusiya silah və sursatla yardım edir. Hələ ötən illərdən Rusiyanın bir milyon dollarlıq dəyəri olan silah-sursatı Ermənistana bağışlaması geniş dairələrdə müzakirə olunmuşdu.

Təəssüf ki, problemin çözümündə həmsədr olan Rusiyanın mövqeyi Azərbaycan tərəfindən kəskin etirazlarla qarşılanmışdı. Həmin vaxt məsələni müxtəlif siyasi yozumlarla daldalayan Rusiya son vaxtlar yenə Ermənistanı silahlandırmaq üçün addımlar atıb. Özü də təkcə Rusiya yox, eləcə də Serbiya Ermənistana silah-sursat satmaq və göndərməklə məşğul olmuşdu. Bu məsləyə də münasibət bildirən Azərbaycan Prezidenti yerli mediaya müsahibəsində vurğulamışdı ki, **"Serbiya və Rusiya prezidentləri ilə mənim telefon söhbətlərim oldu və mən narahatlığımı ifadə etdim".**

Həqiqətən də özünü sülhpərvər, Qafqaza sülh arzulayan dövlət kimi göstərən Rusiyanın erməniləri silahlandırması adamın yaddaşında hələ 1905-ci ildən qalan bir faktı təzələyir. Xatırlayırsınızsa, böyük dramaturqumuz Cəfər Cabbarlının "1905-ci ildə" dramında bir səhnə var. Həmin səhnədə deyilir ki, "atam kazaklardı". Bu bir həqiqətdir ki, bu gün işğal olunmuş torpaqlarımızda istifadə olunan silah və sursatlar daha çox Rusiyanın istehsalıdır və ermənilərin güvəndiyi də daha çox həmin dövlətdir. Nəhayət, bu da bir gerçəkdir ki, **"Ermənistan siyasətinin əsas qayəsi özlərini alçaltmaqdır, özlərindən məzlum, yazıq xalq imici düzəltməkdir, ağlaşmaqdır və ondan-bundan nə isə imtiyaz, ianə, qrant, kömək qoparmaqdır".** Bu fikirlərin də müəllifi prezidentimiz cənab İlham Əliyevdir. Deməli, onun dünyaya bəyan etdiyi bu gerçəklik bir daha göstərir ki, artıq ermənilərin kimliyi ortadadır. Və onlar Azərbaycan əsgərinin gücünü görməyə məhkumdurlar.Şükürlər olsun ki, bu gün o gücü görürlər. Bayrağımız Şuşaya doğru aparılır!!!

**Əbülfət MƏDƏTOĞLU**
**Əməkdar jurnalist**

# "Azərbaycanın özünümüdafiə hüququ vardır"

**"1949-cu ildə Cenevrədə 4 konvensiya qəbul olunub. Bununla yanaşı 1977-ci ildə əlavə protokollar qəbul olunub. Bu konvensiyalardan biri də "Mülki şəxslərin müdafiəsi" ilə bağlıdır. Ermənistan dəfələrlə müxtəlif istiqamətlərdə mülki əhaliyə ağır artilleriyadan istifadə etməklə atəş açıblar. Bunun nəticəsində insanların mülkiyyətinə külli miqdarda ziyan dəyməsi ilə yanaşı vəfat edənlər var. Bu 1949-cu il Cenevrə konvensiyasının pozulmasıdır".**

Bu sözləri Adalet.az saytına açıqlamsında BDU-nun hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev söyləyib:

"Ümumiyyətlə, Dağlıq Qarabağ problemində bir nüansı diqqətə çatdırmaq istərdim, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə Azərbaycanın özünümüdafiə hüququ var. Özünümüdafiə hüququ nə deməkdir? Bu, fərdi və kollektiv həyata keçirilə bilər. Əgər mübahisə Dağlıq Qarabağ zonasıdırsa, aydındır, bəs 7 rayon niyə işğal edilib? Ermənistan buna necə haqq qazandıra bilər?



BMT Nizamnaməsinin 51-ci maddəsi ilə Azərbaycanın hüququdur ki, öz ərazilərini işğaldan azad etsin. Ermənistanın mülki əhaliyə qarşı olan hücumları onun hansı beynəlxalq məsuliyyətdə olduğunu əsaslandırır. Mülki şəxslər nə iştirakçıdırlar, nə iştirakçılar siyahısına daxil edilən köməkçi heyətin üzvüdürlər. Onlar mülki əhali kateqoriyasına daxildirlər. Mülki əhalinin silahlardan atəşə tutulması və öldürülməsi Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulmasıdır.

Heç bir dünya dövləti Azərbaycana qarşı sərt ittiham irəli sürə bilməz ki, sən niyə öz ərazini işğaldan azad edirsən? Bu, beynəlxalq hüquqdan irəli gələrək dövlətin hüququdur. Cənab Prezident xalqa müraciətində vurğuladı ki, biz Ermənistan ərazisindən 1 sm torpaq istəmirik. Biz öz ərazilərimizi istəyirik.

7 rayonun işğalı beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Azərbaycanın işğal olunmuş bütün ərazilərində ermənilər tarixi-mədəni irsimizi məhv ediblər ki, bunlar da böyük beynəlxalq cinayətlərdir. Ermənistan dayanmadan Livandan və başqa ölkələrdən Azərbaycanın ərazilərinə vətəndaşlar yerləşdirirlər, bu isə daha bir böyük cinayətdir. Müharibə bitməmiş, sülh danışığı olmamış heç bir əraziyə heç bir kənar şəxs köçürülə bilməz. Bu, beynəlxalq hüququn müəyyən etdiyi qaydalardır. Bu gün beynəlxalq aləm birmənalı şəkildə Azərbaycanın mövqeyini dəstəkləməlidir və Ermənistanın törətdiyi beynəlxalq təcavüzlərə sanksiyalar tətbiq edilməlidir. Ermənistanda olan qeyri-qanuni rejim beynəlxalq məsuliyyətə cəlb olunmalıdır".

**Rövşən Tahir**

### *Ərdoğan: 30 ildir münaqişənin həllində heç bir iş görməyənlər indi bəyanat verir*

***Qardaş Azərbaycanın yanındayıq.***

***30 ildir münaqişənin həllində heç bir iş görməyənlər indi bəyanat verir.***

***Adalet.az-n məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyir Ərdoğan deyib.***

***Onun sözlərinə görə, bəzi qüvvələr iddia edir ki, Türkiyə ordusu münaqişə zonasında iştirak edir, Azərbaycana silah yardımı edir. Elə düşünürlər ki, Azərbaycan onlara hesab verməlidir.***

### *Hulusi Akar: Ermənistan Azərbaycan torpaqlarını dərhal boşaltmalıdır*

***Ermənistan Azərbaycan torpaqlarını dərhal boşaltmalıdır.***

***Adalet.az-ın məlumatına görə, bunu açıqlamasında Türkiyə Müdafiə naziri Hulusi Akar deyib.***

***Onun sözlərinə görə, Ermənistan eyni zamanda xarici dövlətlərdən gətirdikləri muzdlu döyüşçüləri və terroristləri öz dövlətlərinə geri göndərməlidir. Biz bunu tələb edirik.***

*Nazım Hikmet*

# Güneşi İçenlerin Türküsü

**Bu bir türkü:-**
**toprak çanaklarda**
**güneşi içenlerin türküsü!**
**Bu bir örgü:-**
**alev bir saç örgüsü!**
**kıvranıyor;**
**kanlı; kızıl bir meş'ale gibi yanıyor**
**esmer alınlarında**
**bakır ayakları çıplak kahramanların!**
**Ben de gördüm o kahramanları,**
**ben de sardım o örgüyü,**
**ben de onlarla**
**güneşe giden**
**köprüden**
**geçtim!**
**Ben de içtim toprak çanaklarda güneşi.**
**Ben de söyledim o türküyü!**

**Yüreğimiz topraktan aldı hızını;**
**altın yeleli aslanların ağzını**
**yırtarak**
**gerindik!**
**Sıçradık;**
**şimşekli rüzgara bindik!.**
**Kayalardan**
**kayalarla kopan kartallar**
**çırpıyor ışıkta yaldızlanan kanatlarını.**
**Alev bilekli süvariler kamçılıyor**
**şaha kalkan atlarını!**

**Akın var**
**güneşe akın!**
**Güneşi zaptedeceğiz**
**güneşin zaptı yakın!**

**Düşmesin bizimle yola:**
**evinde ağlayanların**
**göz yaşlarını**
**boynunda ağır bir**
**zincir**
**gibi taşıyanlar!**
**Bıraksın peşimizi**
**kendi yüreğinin kabuğunda yaşayanlar!**

**İşte:**
**şu güneşten**
**düşen**
**ateşte**
**milyonlarla kırmızı yürek yanıyor!**

**Sen de çıkar**
**göğsünün kafesinden yüreğini;**
**şu güneşten**
**düşen**
**ateşe fırlat;**
**yüreğini yüreklerimizin yanına at!**

**Akın var**
**güneşe akın!**
**Güneşi zaaptedeceğiz**
**güneşin zaptı yakın!**

**Biz topraktan, ateşten, sudan, demirden doğduk!**
**Güneşi emziriyor çocuklarımıza karımız,**
**toprak kokuyor bakır sakallarımız!**
**Neş'emiz sıcak!**
**kan kadar sıcak,**
**delikanlıların rüyalarında yanan**
**o "an"**
**kadar sıcak!**
**Merdivenlerimizin çengelini yıldızlara asarak,**
**ölülerimizin başlarına basarak**
**yükseliyoruz**
**güneşe doğru!**

**Ölenler**
**döğüşerek öldüler;**
**güneşe gömüldüler.**
**Vaktimiz yok onların matemini tutmaya!**

**Akın var**
**güneşe akın!**
**Güneşi zaaaptedeceğiz**
**güneşin zaptı yakın!**

**Üzümleri kan damlalı kırmızı bağlar tütüyor!**
**Kalın tuğla bacalar**
**kıvranarak**
**ötüyor!**
**Haykırdı en önde giden,**
**emreden!**
**Bu ses!**
**Bu sesin kuvveti,**
**bu kuvvet**
**yaralı aç kurtların gözlerine perde**
**vuran,**
**onları oldukları yerde**
**durduran**
**kuvvet!**
**Emret ki ölelim**
**emret!**
**Güneşi içiyoruz sesinde!**
**Coşuyoruz,**
**coşuyor!..**
**Yangınlı ufukların dumanlı perdesinde**
**mızrakları göğü yırtan atlılar koşuyor!**

**Akın var**
**güneşe akın!**
**Güneşi zaaaaptedeceğiz**
**güneşin zaptı yakın!**

**Toprak bakır**
**gök bakır.**
**Haykır güneşi içenlerin türküsünü,**
**Hay-kır**
**Haykıralım!**

# CƏBHƏDƏN XƏBƏRLƏR

**Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

***

**Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli ək-hücum əməliyyatı davam edir.

***

**Düşmənin ön xətti yarılıb, 7 kənd işğaldan azad olunub. Trend-in məlumatına görə, bunu Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov sentyabrın 27-də Təhlükəsizlik Şurasının iclasında deyib.**

"Əməliyyat şəraitini nəzərə alaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirir. Digər istiqamətlərdə Azərbaycan Ordusu uğurlu hücum əməliyyatları həyata keçirir və düşmən o qədər də güclü görünmür və tam şəkildə geri çəkilir".

Qeyd edək ki, Müdafiə Nazirliyindən verilən rəsmi məlumata görə, cəbhənin Füzuli, Cəbrayıl istiqamətində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdülrəhmanlı, Cəbrayıl rayonun Böyük Mərcanlı, Nüzgar kəndləri işğaldan azad edilib.

***

**Məlum olduğu kimi, sentyabrın 27-də saat 06.00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək Azərbaycan Ordusunun cəbhəboyu zonada yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.**

Fövqəladə Hallar Nazirliyindən Adalet.az-a bildirilib ki, düşmənin təxribatı zamanı dinc əhalinin sıx yaşadığı yaşayış məntəqələri də atəşə məruz qalıb. Nəticədə mülki əhaliyə məxsus fərdi yaşayış evləri və digər mülki obyektlər dağıdılıb, dinc əhalinin əmlakına ciddi ziyan yetirilib.

Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər nəticəsində Ağdam və Tərtər rayonlarında yerləşən fərdi yaşayış evləri və mülki obyektlərdə baş vermiş yanğınların söndürülməsi üçün Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri dərhal əraziyə cəlb edilib.

Görülmüş operativ tədbirlər nəticəsində yanğınlar qısa müddətdə söndürülüb.

***

**Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsi azad olunub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a bildiriblər ki, əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

Döyüş əməliyyatları davam edir.

***

Ermənistan silahlı qüvvələrindən azad edilən yüksəkliklərdən və əlverişli mövqelərdən hərəkətə keçən Azərbaycan Ordusunun bölmələri əldə olunmuş müvəffəqiyyəti artırmaq məqsədilə əks-hücum əməliyyatını davam etdirir.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilməklə, o sıxışdırılaraq əldə saxlamaq istədiyi hədlərdən geri çəkilməyə məcbur edilir.

Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənib, düşmən xeyli itki verib.

***

**"Ermənistan Müdafiə Nazirliyinin rəsmilərinin Azərbaycan Ordusundakı itkilərin sayı ilə bağlı yaydığı məlumatların heç bir əsası yoxdur və reallığı əks etdirmir. Bu, Azərbaycan Ordusunun uğurları qarşısında erməni əhalisi arasında hökm sürən təşviş və ordularındakı yaranmış xaosu bir qədər azaltmaq məqsədi güdür".**

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalıb: "Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib".

Məlumata görə, Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri polkovnik-leytenant Lernik Babayan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb: "Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur. Ermənistan tərəfi hər zaman olduğu kimi yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir".

***

**Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.**

Baş Prokurorluqdan Adalet.az-a verilən məlumata görə, dərin kədər hissi ilə qeyd edirik ki, düşmənin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində 28.09.2020-ci il tarixdə saat 11 radələrində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon Məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olub, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşınının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan hərbi polisin əməkdaşı, 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanıb.

***

**Ermənistan tərəfindən Azərbaycan ordusunun itkisi ilə bağlı yayılan məlumatlar tamimlə yalandır.**

Adalet.az-ın məlumatına görə, bunu Müdafiə Nazirliyinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov açıqlamasında deyib.

O qeyd edib ki, bu saxta məlumatların məqsədi ölkə daxilində yaranan xaosu azaldmaqdır. A.Eyvazov bildirib ki, kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu ciddi itkilərə məruz qalıb.

Onun sözlərinə görə, düşmənin 24 ədəd tankı və zirehli texnikası, 15 ədəd zenit raket kompleksi, 15 uçuş aparadı, 8 ədəd artilierriya qurğusu, 550 nəfərdən artıq şəxsi heyət itkisi var. o qeyd edib ki, düşmən itkilərinin arasında aşkar edilmiş bəzi cəsədlərin Suriyadan və Yaxın Şərqdən gətirliş muzdluların olduğu aşkar edilib.

# Xalq Ali Baş Komandanla birlikdədir

**Bu gün səhərdən başlayaraq redaksiyamızın poçtuna düşmən təxribatı ilə bağlı çoxsaylı yazılı və şifahi müraciətlər daxil olmaqdadır. Hər kəs ordumuza, Ali Baş Komandanımıza sevgisini ifadə edir, qələbə sevincinin tezliklə reallaşacağına inanır. Həmin müraciətlərin bəzilərini diqqətinizə təqdim edirik.**

**Əli Məmmədov( Füzuli şəhər sakini):**

”30 ildir, bu günü gözləyirdim. Axır ki, o günü görmək mənə nəsib oldu. Səs verdiyim, güvəndiyim, inandığım Ali Baş Komandanım düşməni yerində oturtmaq əmri verdi. Xəbərləri ürək döyüntüsü ilə izləyirəm. Prezidentim əmr versə bu yaşımda da cəbhəyə getməyə hazıram. Çünki onun mənimlə birlikdə olduğuna, birlikdə torpaqları azad edəcəyimizə bu gün bütün varlığımla inanıram. O inamla da deyirəm:

Var olun, Cənab Komandan! Sizin Şuşaya bayraq taxacağınız günü artıq görürük. Sizinlə birlikdəyik. Siz bizim milli qəhrəmanımızsınız.”

**İsa Məmmədov( Ağdam rayon, Mərzili kənd sakini):**

”Bu sabah eşitdiyim xəbər təkcə məni yox, bütün ailə üzvlərimizi ayağa qaldırdı. Qulağımız səsdə, gözlərimiz televizorda xəbərlər gözləməyə başladıq. Ordumuzun əks hücüm əmrini almasını eşidəndə özümüzü saxlaya bilmədik. Insan müharibə xəbərinə sevinməz. Amma biz bu müharibənin torpaqlarımıza azadlıq gətirəcəyini bildiyimizdən sevinc göz yaşları axıtdıq. Ardıyca Ali Baş Komandanın kəskin və həm də düşmənə yerini göstərəcək müraciətini dinlədik. Həqiqətən, erməni dığasının mənim torpağımda nə işi var? Niyə rədd olub, öz xarabasına çıxıb getmir? Niyə mundar qanının bizim torpaqlara tökülməsini istəyir.

Cənab Ali Baş Komandan bütün ailə üzvlərimlə birlikdə sizin əmrinizi gözləyirəm. Biz sizin rəhbərliyinizlə mütləq o yerlərə qayıtmalıyıq. Bu günkü əks hücum da o qələbinin uzaqda olmadığını göstərir. Allah sizi qorusun. Qələbə sizin rəhbərliyinizlə Azərbaycanın olacaq.”

**İsmayılov Əli( Xocavənd rayon sakini):**

”Cəbhə bölgəsində yaşadığımdan son günlərinin narahatçılığını aşıq-aşkar hiss edirdik. Amma Tovuz hadisələrindən sonra ermənilərin yenidən həyasızlıq edəcəyinə inanmırdım. Görünür, ilanın başı əzilmək istədiyindən yuvasında qıvrılıb yata bilmir. Bax, ermənilər də həmin zəhərli ilanlardandır. Başlarının əzilmək vaxtı çatıb.

Bu sabah eşitdiyimiz atəş səsləri bizi ayağa qaldırdı. Amma şükürlər olsun ki, ordumuzun əks həmləsinin də şahidi olduq. Artıq səhər saatlarında Ali Baş Komandanın müraciətini dinlədik. Əmin olduq ki, Azərbaycan ordusu bütün cəbhə boyu düşməni susdurur. Hətta onları işğal etdikləri kəndlərdən vurub çıxarır. Bu böyük sevinci, xoşbəxt anları bizə yaşadan Ali Baş Komandanımıza minnətdarıq. Hamımız bir nəfər kimi onun əmrini, çağırışını gözləyirik. Çünki bizim bu yerlərə bələdçiliyimiz də var, döyüş təcrübəmiz də. Ona görə də üzümü öz prezidentimə, Ali Baş Komandanıma tutub deyirəm: Sizin əmrinizi gözləyirəm, Cənab Komandan. Torpaqlarımız naminə sizin əmrinizlə şəhid olmağa hazıram. Bilirəm ki, siz bizi qələbəyə qovuşduracaqsınız. Sizin rəhbərliyinizlə şəhidlərimizin qisası alınacaq. Allah sizi qorusun, cənab prezident! Allah ordumuza kömək olsun! Tanrı bizə qələbə sevincini nəsib etsin!.”



**Babək Əliyev( Bakı şəhəri, dövlət qulluqçusu):**

”Hər birimiz Azərbaycanın ehtiyatda olan əsgəriyik. Əsgərin hansı ürəklə, hansı dəyanətlə döyüşə atılması onun komandirinin peşəkarlığından, əsgərə verdiyi ruh yüksəkliyindən aslıdır. Biz bu gün, yəni sentyabr ayının 27-də Ali Baş Komandanımızın müraciətini dinlədik. Bu tarixi müraciət bizim hər birimizin gözlədiyimiz qələbə anının yetişdiyini ifadə etdi. Ona görə də torpaqlarımızın azad edilməsi istiqamətində səfərbər olmaq bizim borcumuzdur. Bu borcun ödənilmə məqamı yetişib. Öz komandanımızın rəhbərliyi altında düşmənlərimizi torpaqlarımızdan qovub çıxarmağa hazırıq. Azərbaycan əsgəri bilsin ki, biz onunla çiyin-çiyinə dayanmışıq. Əmr verilən an hücuma atılacağam.

Cənab prezidentimizin qətiyyətli mövqeyini dəstəkləməklə demək istəyirəm ki, biz məhz onun komandanlığı altında qələbə sevincimizi xalqımıza yaşatmaq üçün hər an hazırıq. Biz sizinləyik, Cənab Prezident!”

**Hüseyn Əsədov( İsmayıllı rayon sakini)**

”Cənab Ali Baş Komandanımız, cəbhədə baş verən növbəti düşmən təxribatının qarşısı güclü ordumuz tərəfindən qətiyyətli alınır. Bu çətin günlərdə dövlətimiz, xalqımız sizinlə birgə bir yumruq oldu. Bu yolda sizin göstərdiyiniz cəsarətiniz, fəaliyyətiniz bizi qürurlandırdı. Vətənpərvər nəslin yetişməsi vacib və önəmli məsələdir.

Dünən işğalda olan Azərbaycan torpaqlarının bir qisminin azad olunması bizdə sevinc və şərəfli hislər yaşatdı. Bizi, vətənimizi, xalqımızı qoruyan güclü ordumuz var. Biz də hər zaman öz ərazi bütövlüyümüzü qorumaq üçün hazırıq. Gənclər daim sizə inanır və güvənir.”

**Təbriz Süleymanov( Füzuli rayon sakini)**

”Biz senytanrın 27-də səhər saatlarında top, mərmi səsi eşidəndə 90-cı illərdə olduğu kimi qorxu və vahimə yaşamadıq. Çox sakit tərzdə kəndimizdə işimizi davam etdirdik. Ən azından ona görə ki, Azərbaycan ordusunun necə güclü və qüdrətli olmasını biz bir neçə dəfə görmüşdük. 1993-cü ildə avqustun 23-də kəndimiz erməni işğalçıları tərəfindən ələ keçiriləndə yurdumuzdan didərgin düşsək də ocağımıza qayıdacağımıza inanırıq. 1994-cü ilin yanvarının 4 və 6-da Azərbaycan ordusunun apardığı uğurlu əməliyyat nəticəsində Füzulinin 22 kəndi və Horadiz şəhəri geri qaytarıldı. Bizim Böyük Bəhmənli kəndi də işğaldan azad olundu.

Hətta 2016-cı ilin aprelində ordumuzun keçirdiyi uğurlu əməliyyat zamanı bir nəfər olsun belə kəndi tərk etmədi. Çünki biz Azərbaycan ordusuna güvənmişik və sentyabrın 27-də səhər saatlarında döyüşlər başlasa da kəndimizdə bir nəfər belə çıxmayıb.

Çünki biz Azərbaycan prezidenti İlham Əliyevə və Azərbaycan ordusuna güvənirik. Bu ağır döyüşlər zamanı kəndimizin yüzlərlə gənci hərbi səfərbərlik idarəsinə yollanaraq orduya dəstək verir və döyüşmək istədiklərini bildirirlər. Biz ordumuzun qələbəsinə inanırıq!”

**Emin Piri**

# Paşinyan, yeyəndə elə ye ki...

**Yadınızda olar: Ötən ilin may ayında erməni mediası və sosial şəbəkə istifadəçiləri Ermənistanın Baş Naziri Nikol Paşinyanın Şuşa şəhərinin işğalı şərəfinə düzənlənən mərasimdəki görüntülərini yaydı. Görüntülərdə N. Paşinyanın əvvəlcə işğal şərəfinə şərab içməsi, daha sonra isə Şuşada Azərbaycan xalq mahnısına oynayan ermənilərə qoşulub yallı getməsi kadrları yer alıb. Yəni o bu hərəkətləri ilə bəyan edirdi ki, "mən belə hesab edirəm ki, biz buranı işğal etmişik və bu bizim növbəti böyük Ermənistan yaratmaq planımızın bir hissəsidir, Dağlıq Qarabağı da öz ərazimiz hesab edirik və yaxşı edirəm gəlib-getməklə".**





Həmin videogörüntülər Azərbaycan xalqının səbr kasasını daşdıran nüanslardan biri kimi qisas yaddaşına yazıldı. Paşinyanın planlaşdırılmamış, Azərbaycan dövlətinin və ordusunun gücü anlamamadan belə dekanstruktiv hərəkətlərə yol verdi. Bu gün isə etdiyi yalnışlıqlarının hesabını birbir verməkdədir.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatları artıq 2-ci gündür ki başlayıb. Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji durumu yüksəkdir, gərgin döyüşlərdə iştirak edən hərbi qulluqçularımız şücaətlə döyüşür.Qələbə xəbərləri ard-arda gəlir.

Paşinyan isə növbəti özbaşnalığının "mənəm-mənəm"liyinin cəzasını çəkir, həm işğalçı ordusu, həm qondarma "Qarabağ Respublikası", həm də o ərazilərə yerləşdirilmiş livanlı- suriyalı əcnəbiərlə birgə Azərbaycan xalqının, Azərbaycan ordusunun və nəhayət Haqq olan Allahın qarşısında cavab verəcək. O gün bu gündür! Dövlətimizin-ordumuzun qarşısında çarəsiz duruma düşən Ermənistan dövləti və Ermənistanın simasında baş nazir Nikol Paşinyan hətta işğal altında olan Dağlıq Qarabağ bölgəsində yaşayan erməni əhaliyə çağırış edərək, Ermənistana qaçmağı məsləhət gördü.

Bir gözüm Müdafiə Nazirliyinin qürur hissimizi göylərə qaldıran açıqlamalarında olaola bizə çəkdirdiyin dağlardan daha çox yazmaq istərdim.

Amma yazmıram, çünki növbəti xəbərə o qədər sevinirəm ki, sənin kimi pisliyin etdiyi bədxahlıqları unuduram!

**Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı!**

**Əntiqə Rəşid**

# Xüsusi karantin rejimi noyabrın 2-dək uzadıldı



**Nazirlər Kabineti "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə" qərar verib.**

Adalet.az-ın məlumatına görə, ölkə ərazisində xüsusi karantin rejimi 2 noyabr saat 06:00-dək uzadılıb. Qərara əsasən, 2020-ci il 3 oktyabr saat 00:00-dan 5 oktyabr saat 06:00-dək, 10 oktyabr saat 00:00-dan 12 oktyabr saat 06:00-dək, 17 oktyabr saat 00:00-dan 19 oktyabr saat 06:00-dək, 24 oktyabr saat 00:00-dan 26 oktyabr saat 06:00-dək və 31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti və Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılacaq.

**Fəridə Rəhimli,**
**Yenises.az-ın Baş redaktoru**



# Gözlədiyimiz gün

***Gözün aydın, millətim! İşğal altında inləyən torpaqlarımızın azad olması yaxındadır. Həsrətlə, nisgillə keçirdiyimiz illərin sonu görünür…***

***Ermənistan adlı bəla I Pyotrun "parçala, hökm sür" siyasətiylə iki qardaş ölkə - Türkiyəylə Azərbaycan arasına qarayara kimi salındı. Hardan gəldikləri, kimdən törədikləri müəmma olan bu insan şəklindəki vəhşilər hər yerə özləri ilə bəla daşıyıblar. Getdikləri yerdə onların halına acıyıb, çörək, su verən əli qapmağa adət ediblər. Onlar xislətlərinə sadiq qalaraq əvvəl qapılarda qul, kölə olaraq işə başlayıb, sonradan ona yaşamaq üçün verilən yerlərin iddiasında olublar.***

***Yaxın tarixdə Rusiyanın köməyilə Azərbaycandan qoparılan torpaqların hesabına özlərinə dövlət yaratmalarına baxmayaraq Azərbaycanın digər bölgələrinə və qonşu Türkiyənin torpaqlarına iddiaya başlayıblar. Hər dəfə bu yolda törətdikləri vəhşiliklərdən cana doyan türk milləti tərəfindən burunları əzilsə də öz mənfur, rəzil "Böyük Ermənistan" istəklərindən əl çəkmirlər.***

***Onların növbəti təxribatlarından biri də bu gün, sentyabrın 27-si, səhər saat 6:00-da baş verdi.***

***İllərlə dünya ölkələrindən bu vəhşiliklərə ədalətli cavab, çıxış yolu gözləyərək səbr edən prezidentimiz, ordumuz artıq, qaya kölgəsinə sığınıb hürən bu itlərə həddini bildirmək qərarına gəldi.***

***Yetər bu qədər dözdüyümüz! Türkün səbri böyük olur, amma səbir kasası doldumu, qarşısında dayanmaq mümkün deyil, intiqamı da böyük olur!***

***Qədim İrəvanımızı, Zəngəzurumuzu, cənnət guşələrimizi peşkəş etdikləri və minnətdarlıq əvəzinə hey möhnət gördüyümüz düşməni yerində oturtmağın vaxtı çoxdan çatıb. Mənə qalsa, onları İrəvana qədər sıxışdırmaq və ordan da gəldikləri əzəli yerlərinə qovmaq lazımdır. Nə qədər qəddar səslənsə də, ən gözəl erməni ölü ermənidir, deyirəm.***

***Yenilməz ordumuz! - igid, vüqarlı əsgər, zabitlərimiz, Allahın amanında irəliləyin! Xocalının, Qaradağlının, Cəmillinin… qisasını alın! Qarabağın azad olması yolunda canını qurban verən igid oğullarımızın qanını alın! Əsirlikdə min bir əzab, işgəncəyə məruz qalan qadınlarımızın, uşaqlarımızın, yaşlılarımızın intiqamını alın! Dinc əhaliyə tutulan divanların hesabını istəyin! Qardaş Türkiyə ilə aramıza çiv kimi soxulan bu bəlanı əzərək çıxarın!***

***İrəli, Azərbaycan əsgəri!***

# *Akif Aşırlı:* Artıq zaman da, şərtlər də, şərait də Azərbaycanın xeyrinədir

**Gözlənilən gün gəldi. Dədə-babalarımızın canlarını fəda etdiyi Qarabağ uğrunda 27 ildən sonra ikinci savaş yenidən alovlandı. Sentyabrın 27-si və 28-i cəbhədə erməni təxribatı zamanı cəbhəyanı bölgələrdə yaşayan mülki əhalimizə itkilər üz verdi. Həmin gün ordumuz düşməni cavab atəşi ilə susdurdu, ardınca isə Ali Baş Komandan ordumuzun əks-hücuma keçməsi haqqında qərar qəbul etdi. Ölkədə hərbi vəziyyət elan olundu, düşmən layiqli cavabını alır və almaqdadır. 7 kəndin və Murov zirvəsinin işğaldan azad olunması ordumuzda və xalqımızda böyük ruh yüksəkliyi, qələbə əzmini daha da artırması bunun bariz nümunəsidir və ümid edirik ki, qələbə bizim olacaq.**



Bununla bağlı adalet.az olaraq ölkədə bəzi məhdudiyyətlər hökm sürür. Ölkədəki hərbi vəziyyətlə bağlı "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlının fikirlərini öyrəndik.

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı:**

- Vəziyyət kifayət qədər xeyrimizədir. Xalqımız illər idi ki, bu kiçik qələbəyə həsrət idi. Artıq işğalda olan Fizulinin, Cəbrayılın bir neçə kəndinin, eləcə də bizim üçün strateji önəmi olan bir sıra yüksəkliklərin işğaldan azad olunması Azərabaycan xalqının qələbə ruhunu, sevinc ovqatını bir xeyli artırdı. Bu gün işə gələndə gördüyüm mənzərə, yəni həm fərdi maşınlardan, həm də eyvanlardan Türkiyənin və Azərbaycanın bayraqalarının asılması onu göstərir ki, xalqımız döyüş, qələbə ruhuna köklənib. Sözsüz ki, bütün bunlar itkilərimizin, şəhidlərimizin sayəsində başa gəlir, amma müharibənin bir sıra qayda-qanunları var ki, biz də bütün bunlara riayət etməliyik.

Düzdür, son dövrlər internetlə bağlı müəyyən problemlər yaşayırıq, amma bu da obyektiv dəyərləndirilməlidir. O baxımdan ki, müharibə təkcə cəbhədə yox, artıq sosial şəbəkələrdə də, ayrı-ayrı informasiya portallarında da öz əksini tapıb. Bizi istəməyən qüvvələr var və bu qüvvələrin bizim informasiya məkanımıza "hücum" etməsi, əhali arasında "iflas" ab-havası yaratmaq istəkləri var. Biz bunu göz ardına almalıyıq. Ordumuz artıq öz peşəkarlığını ortaya qoydu və orduya xərclənən vəsaitin və ordumuzun peşəkarlaşması istiqamətində Prezidentimizin atdığı ardıcıl addımlar, Türkiyənin həm hərbi, həm də siyasi elitasının Azərbaycana yaxın olması təbii ki, bizdə qələbə ruhunu ikiqat artırır.

Tanrıdan xalqımızın bu arzusunun çin olmasını diləyirəm və düşünürəm ki, artıq zaman da, şərtlər də, şərait də Azərbaycanın xeyrinədir.

**Eminquey**

# *Şəhərdaxili ictimai nəqliyyatın hərəkəti adi rejimdə davam etdiriləcək*

***28 sentyabr tarixindən hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Prezidentinin Fərmanının icrası ilə bağlı komendant saatı tətbiq olunan Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində Abşeron, Cəbrayıl, Füzuli, Ağcəbədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında sərnişindaşımada fasiləsiz xidmətin təmin edilməsi məqsədilə ictimai nəqliyyatın hərəkətinin adi rejimdə (06:00-00:00) davam etdirilməsi təmin ediləcək.***

***Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən (DANX) Adalet.az-a verilən məlumata görə, hərbi vəziyyətin davam edəcəyi müddətdən asılı olaraq xüsusi hallar da nəzərə alınmaqla ictimai nəqliyyatın hərəkət qrafiki və qaydaları ilə bağlı son dəyişikliklər barədə xəbərlər operativ şəkildə ictimaiyyətə təqdim ediləcək. Qeyd edək ki, bunda öncə Azərbaycanda komendant saatı səbəbindən şəhərlərarası avtobusların hərəkəti Bakı şəhəri istisna olmaqla bu gündən etibarən saat 6:00-dan 20:00-dək təşkil ediləcəyi bildirilirdi.***



Emin Piri

# Tarixi bütövlüyə doğru...

Aprel igidlərinin, qazilərinin, şəhidlərinin döyüşmüş olduğu yerləri görmək, azad edilmiş müqəddəs torpaqlara qovuşmaq ümidiylə Müdafiə Nazirliyi jurnalist dostlarla birgə bizə belə bir şərait yaradır.

Murov yüksəklikləri bizi gözləyir...

Müdafiə Nazirliyinin sözçüsü bizi yola salır. Yol boyu həmin yerlərə çatmaq üçün nə qədər darıxsaq da sonradan zamanın necə keçdiyini unuduruq. Ön sırada əyləşmiş ehtiyatda olan zabitlərimizin Qarabağ savaşındakı əməliyyatlardan, öz döyüş yolundan danışması bizi acılı-şirinli keçmişə aparır. Ən arxa sırada otursam da hiss edirəm ki, qulağım məndən qabaq sırada, onun yanında oturub.

Yol boyu Qarabağ adlı, işğal olunmuş rayonların adına olan kafelər diqqət çəkir. Vətəni kafeyə, yeyib-içmək masasına qədər necə sığışdırmaq olar deyə düşünürəm. İşğal olunmuş rayonların adını unutmaq istəməyən adını döyüş klublarına, idman klublarına və.s verə bilər, daha əylənmə mərkəzlərinə niyə qoysun ki?! Kafelərdən sonra məcburi köçkünlərçün salınan "Ümid" qəsəbəsinin adı qəmli düşüncələrimin içində yeni bir ümid qığılcımı yaradır.

Bərdədəyik. Zabitlər yataqxanası. 2000-3000 metr yüksəklikdəki postlara çıxıb, nələr edəcəyimizi planlaşdırırıq. Hiss edirəm ki, hamıda qəribə bir sevinc var. Ən çətin şəraitdə xidmət edən zabit, əsgərlərlə bərabər olmaq, əllərini sıxmaq, onlarla bir günü olsa da bərabər keçirmək şansı. Bir də işğal altında olan Azərbaycan torpaqlarını həmin yüksəkliklərdən öz gözünlə görə bilmək hissinin yaratdığı sevinc heç birimizi yatmağa qoymur.

Bu, necə qəddar sevincdir İlahi?!

İşğalda olan torpaqları sadəcə gözlərinlə görə bilmək hissinə insan niyə sevinsin?!

Adı üstündə işğalda olan, əsir torpaq!

Özümə toxtaqlıq verirəm. Müxtəlif müqayisələr tapıram. Bu, sadəcə həbsxanada olan əzizini bir günlük görmək hissinə bənzəyir. Nə zamansa azadlığa qovuşacağına inanırsan.

Gözlərimdə yuxunun yaratdığı əzab var. Amma yatmıram, yata bilmirəm. Uşaqların səhər harasa sevdiyi yerə gedəcəyini biləndə yata bilməməsinə bənzəyir bu. Telefonla qurdalanıram. Saat 5-dir. Tez-tez eyvana çıxıb siqareti siqaretə calayıram. Bu təklikdə məni anlayan biri varsa bəlkə də odur.

Qalx komandasına isə cəmi bir saat qalır.

Səlahiyyətli zabitlər qalxacağımız postlarda şiddətli qar yağıntısı olduğunu, əlaqənin az qala mümkünsüz olacağını bildirirlər. Hər kəsin gözlərində kədər var. Amma bizə başçılıq edən polkovnik Babək Səmidlinin bizi istədiyimiz yüksəkliklərə çıxardacağını bildirməsindən sonra özümüzə gəlirik.

Üç-dörd saata nəhayət iki min metr yüksəklikdə olan postlardan birinə çatırıq. Zabit, əsgərlərlə jurnalistlərin çoxdanın tanışı, doğması kimi görüşüb qucaqlaşması mənə qardaşlıq andını, ən gözəl sevgiləri xatırladır. Qısa zamanda köhnənin dostları kimi maraqlı xatirələrdən, aprel və.s döyüşlərindən danışırıq. Əsgər və zabitlərlə müsahibələr alır, onlarla xatirə şəkilləri çəkdirir.

Polkovnik Səmidlinin bizimlə hərbimizdən, döyüşlərdən danışması, intelektual söhbətləri Azərbaycan ordusunda hərbi aristokratiyanın yarandığı ümidini alovlandırır.

Bu yüksəklikərdən həm işğalda olan, həm də olmayan Azərbaycan torpaqları ovcumuzun içində görünür. Bəlkə də ən gözəl duyğular, ən romantik şeirlər yazılası yerlərdir. Əlbəttə, adam burdakı xidmətin çətinliyini bilməsi elə o xəyallarda ilişib qalar. Onsuz da arasıra atəş səsləri adamı o xəyallardan səngərin qucağına atır. Burda ən gözəl sevgili qucaq səngər qucağı, ən sevdiyinsə silahındır.

Aprel döyüşlərində şəhid olan döyüşçülərimizin həlak olduğu yerləri göstərirlər. O torpaqlar, o yerlər gözümüzdə, ruhumuzda daha da müqəddəsləşir. Həmin torpaqların hər qarışı gözümdə öz cansız simasını itirib canlı Azərbaycan əsgəri kimi görünür. O torpaqlarla qucaqlaşmaq, onları qoxlamaq, bağrıma basmaq istəyirəm.

İnsan sevəndə dizlərindən və çiyinlərindən sevir. Sevdiyi adamın başını bütün varlığıyla dizinə, çiyninə qoymasını istəyirsən. Bunu darıxanda hiss etmişəm. Darxıdanda dizlərim və çiyinlərim ağrıyır. Sanki dünyanın ən böyük ağrısıdır. Yerində qıvrıla-qıvrıla qalırsan. Amma nə dərman, nə də hansısa müalicəvi üsulların buna təsiri yoxdur. Nə revmatizmdir, nə də tanıdığımız başqa bir xəstəlik.

Hə, onu deyirdim, artıq çiyinlərimin, dizlərimin ağrıdığı hiss edirəm. Çiyinlərim keçmiş rütbə üçün, silahımçün darıxır, dizlərim səngər torpağı üçün.

Səhərdən önümüzdə qarlı, dumanlı görünən silsilələrdə qarın yavaş-yavaş əridiyini görürük. Hər şeydə mistika axtaran mən bu görüşdə o yüksəkliklərin də qovuşmaq həsrətindən əridiyi anlamanı verirəm. Sanki bizə öz mesajını ötürür, yollar da rahatdı, heç bir bəhanəniz yoxdu, gəlin daha, deyə yalvarır...

Hava qaraldıqca soyuğun iliyimə kimi işlədiyini hiss edirəm. Bu soyuqda əsgəri xidmətin necə çətin olduğunu söyləməyə belə ehtiyac yoxdur. Hətta silahdakı güllənin, mərminin də üşüdüyünü duyuram.

*"əsgər sinəsi axtarır*
*isinməyə*
*fevral şaxtasından*
*üşüyən güllə."*

Belə havalarda əsgər sinəsi düşmən gülləsi üçün əsl Vətəndir...

Digər postlara, xidməti yüksəkliklərə qalxırıq. Zabitlərdən biriylə hardan o söhbətə gəldiyimi bilmirəm, amma söhbətimizlə özümüzü ədəbiyyatın içində görürük. Hüqodan Mopassana, Nəsimidən Hüseyn Cavidə qədər yol aşırıq. Cəbhə zabitinin belə ədəbiyyat söhbətlərindən sadəcə doymuram. Bu gün dünyada gedən proseslərdə ədəbiyyatın da alət edilməsindən, bizim kimi ölkələrdə ədəbiyyat adıyla bir çox hallarda başqa yönlərə xidmətə yönləndirilməsindən danışırıq.

Fikirlərimlə razılaşır, əl sıxırıq:

"Bizə bəşəri ideyalarla tanıdılan böyük yazıçıların əksəriyyəti, əslində milli, dövlət məsələlərində prinsipial olublar. Elə götürək, fransız ədəbiyyatını. Fransa-Prussiya müharibəsi zamanı fransız yazıçı və şairləri qapı-qapı düşüb xalqı müharibəyə, vətəni qorumağa çağırırdılar. Elə Viktor Hüqonun özü. Deyirdi ki, qoy hər bir fransız evi, bir qurban versin, amma şərəfimizi qoruyaq. Dünya şöhrətli yazıçılar haqqında bu cür minlərlə misal çəkmək olar. Amma nədənsə, bizə çatan, təbliğ olunan "humanizm" olur. Bu gün Avropa milli, dövləti təhlükələri dəf etdikləri üçün üçüncü ölkələrə kosmopolit ideyalar sırıyırlar. Bir çox yazıçılar da onların bu tələsinə düşür.

Düzdü, bu, həm də müəyyən anlamda gəlir deməkdir. Avropa milli özünüdərk prosesini keçib. Ona görə də kosmopolitizmə aid, qulağa xoş gələn bəşəri dəyərlər haqqında yazmaq onlara heç bir problem yaratmır. Amma işğal altında torpaqları olan bir məmləkətdə, bəşəri dəyərləri əldə bayraq edərək humanizm ideyasına sırınmaq, bu cür əsərlər yaratmaq xəyanətə bərabərdir və zərərlidir. Nə zaman Azərbaycan öz torpaqlarını bərpa edər, bizim bu kimi problemlərimiz olmaz, o zaman bizim yazıçılar da Avropa yazarları kimi dünyaya bəşəri ideyalar səpərlər. Kimsə demir ki, pafoslu, millətçi, təfriqə yaradan əsərlər yazmaq lazımdı . Amma milli qüruru sındıracaq əsərlər yazmaq da olmaz. Hazırkı durumda bu cür yaradıcılıq nümunələrinin təbliği, şəxslərin parlaq imzalara çevrilməsi prosesi həmin dövlətlərin Azərbaycan kimi ölkələrdə təbliğ mexanizmlərindən biridir. Bu, vicdan məsələsidir, eyni zamanda bu tip yaradıcılıq nümunələri hazırda Azərbaycanda zərərli və təhlükəlidir. Aşırı humanizm Azərbaycan kimi ölkələrdə yaradıcılıqda tələdən başqa bir şey deyil."

"Sağ qalan varmı?!" kitabımı imzalı hədiyyə edirəm. Həyatımda bəlkə də ən maraqlı, ən kreativ imza günü və yeridir mənimçün. İki min metr yüksəklikdə, düşmənlə bir neçə metrlik məsafədə... İnanmıram ki, bundan sonra daha belə imza günüm olsun. Zabit dostumuz ayrılandasa yarızarafat, yarciddi deyir ki, siz narahat olmayın, özünüz qayıtsanız da, kitabınız burada bizimlə birgə xidmət edəcək.

Üç gün sonra postda kitabın şəklini çəkib göndərməsi, şeirlər haqqında fikirlərini bildirməsi isə bir şair üçün möhtəşəm hisdir.

Atəşkəs müqaviləsindən sonra azad edilmiş postları, yüksəklikləri gəzirik. Rayon-rayon itirdiyimiz torpaqları indi qarış-qarış azad edirik. Əsad odur ki, azad olunur. Çünki hər kərə bu fian ildə azad edilmiş ərazidir deyiləndə insanın keçirdiyi duyğunu izah etməyə sözlər aciz qalır.

Səngərdən izləyirik. Önümüzdə Azərbaycanın parçalandığı, bir xalqı ikiyə bölən, o zamandan etibarən itirə-itirə getdiyimiz səbəbkar var. Gülüstan müqaviləsinin imzalandığı Gülüstan qalası. Yarı dağılmış qala divarlarından yüz illərin yarası, iniltisi axır. Bu görüş o qədər mistik, simvolik anlam daşıyır ki, mənimçün. Tam əmin olduğum, inandığım bir mistik inam yaranır. O qalanın önünə keçdikdən, azad etdikdən sonra Azərbaycanın bütövlüyü bərpa olacaq. O qala kiçik ərazisi ilə birgə Azərbaycan ordusu, Azərbaycan tarixi üçün böyük bir rəmzdir. Məhz o simvolu azad etmək...

Məhz o qalanı!

Yol boyu postlarda keçirdiyim anları xatırlayıram. Bir daha yenidən görüşəcəyikmi? Yox, heç zaman orada görüşməyəcik! Amma mütləq görüşəcəyik. Bu dəfə daha irəliyə çəkilmiş, azad olunmuş torpaqlarla, həmin zabit, əsgər heyəti ilə.

Qulağımda qulaqcıq, xəyallara dalmış halda Elçin Mirzəbəylinin sözlərinə bəstələnmiş, oxunan azadlıq marşı saatlarla təkrar-təkrar oxunur:

*"Ey ulu Vətənim, doğma torpağım,*
*Var tükənməz odun, sönməz ocağın,*
*Azadlığa çıxmaq üçün qalxsın bayrağın.*

*Qalx ayağa millət,*
*Boğmasınlar səsimizi.*
*Bir bayraq altında*
*Birləşdir bizi!"*

***P.S.** Bu səfər və yazı iki il öncə, 2018-ci ilin oktyabr ayında baş tutub və qələmə alınıb. 27 sentyabrda Azərbaycan ordusunun əks-hücuma keçməsi ilə qeyd etdiyim yerlər, yüksəkliklər ordumuzun nəzarəti altında keçdi. Bəli, elə hislər var ki, onu adama tanrı göndərir. Məhz iki il öncə hiss etdiklərim kimi. Murov yüksəkliklərinə, Gülüstan qalasına baxdığım kimi. Deməli, Azərbaycanın ərazi bütövlüyünün tam bərpasına az qaldı. Lap az.*

# "TARİXLƏRƏ SİNƏ GƏRMİŞ SƏNDƏKİ O QƏDİM QALA"

## SÖHBƏT MƏŞHUR ZAQATALA QALASINDAN GEDİR

**Məşhur Zaqatala qalasından söhbət açmazdan əvvəl tarixlər boyu işğalçılıq missiyasını aparan Rusiyanın Şimali-Qərbi Azərbaycanın Gürcüstanın tərkibində Rusiya imperiyasına birləşdirilməsi niyyətindən söhbət açaq. Tarixçi alimlərimizin araşdırmalarından məlum olur ki, hələ XVIII əsrin əvvəllərində Rusiyanın maraqlarının Gürcüstanın maraqları ilə üst-üstə düşməsindən məharətlə istifadə edən gürcü və erməni əsilli car generalı Sisianov Rusiyanın hərbi strateji və iqtisadi marqaqlarını təmin etməklə yanaşı, gürcü keşiş və knyazlarının Şimali - Qərbi Azərbaycanın Balakən-Zaqatala bölgəsini Gürcüstan tərkibində Rusiya imperiyasına (həmin vaxtlar Car-Balakən ərazisi adlandırırdı (e.ə) birləşdirmək istəyirdir. Məhz, bu bəd niyyətlərini reallaşdırmaq üçün, Car Rusiyası 1803 -cü ilin martın 2 -də general Qulyakovun komandanlıq etdiyi 1482 piyada, 210 kazak, 113 qeyri-sıravı hərbi qulluqçu, 500 nəfər silahlı Gürcü atlısı, 4000 nəfər Gürcü piyadası və 8 topdan ibarət hərbi qüvvə ilə Car-Balakən üzərinə yürüş edir.**

### *Ruslar daş hasarlarını*

aşan kimi carlılar onlara hücum edirlər. Öndə gedən Gürcü dəstələri əli qılınclı carlıları görərək qorxub arxaya, öz dəstələrinin üzərinə üzərinə qayıdırlar. Sonradan carlıların köməyinə ərazidə yaşayan əli silahlılarda gəlirlər. Qulyakovun arzusu puç olur - O, ilk hücumu zamanı atəşlə öldürülür. Onun silahlı dəstələri isə geri çəkilirlər. Rus mənbələrinə istinadən bildirmək istəyirəm ki, general Qulyakovun komandanlıq etdiyi ruslar və gürcülərdən ibarət silahlı dəstələr 1803 -cü ilin yanvarın 15 -də əvvəlcə Zaqatala dərəcəsinə hücum edirlər, ancaq yerli özünü müdafiə dəstələrinin müqavimətilə rastlaşırlar. Qeyd edək ki, Tala çayı vadisində gedən həmin döyüşlər zamanı daha 3 rus generalı öldürülür. Car-Tala camaatı və onların köməyinə gələn bu ərazidə yaşayan digər millətlərin nümayəndələri tərəfindən öldürülür. Təəssüflər olsun ki, əli yalın əhaliyə bu işğalın qarşısını tam alması mümkün olmur.

Rus işğalçıları gürcüləri çəkinmədən öz ərazilərini hesab etməyə zəmin yaradır. Lakin, tarix köklər danılmazdır, çox millətli Zaqatalanın mərd, cəsur xalqı heç vaxtı işğalçılara əyilməyib, daim haqq uğrunda mübarizə aparıb. Bəs Zaqatalanın bu məşhur qalası necə yaranıb? Üsyanlara sinə gərmiş bu qala. Düzdü, Azərbaycan SSR Nazirlər Kabinetinin 24 yanvar 1984 -cü il tarixli 22 saylı qərarına əsasən Tarixi-mədəniyyət qoruğu elan olunub. Burada Mədəniyyət Nazirliyinin yanında Mədəni irsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət xidmətinin İdarəsində fəaliyyət göstərir.



### *Gənc mütəxəssis*

***Anar Laçınovun elmi işçi Səbuhi Bayramov, bələdçi Sevinc Məmmədova, rəssam - bərpaçı İlhamə Şabanovadan ibarət gözəl və işgüzar kollektivi var. Etiraf etməliyəm ki, Zaqatala şəhərinin Qala Düzü adlanan ərazisində yerləşən tarixi mədəniyyət qoruğu Azərbaycanda bu bölgədə turizmin inkişaf etdirilməsi üçün çox əlverilişli məkandır. Bu, tarixi abidəni qorumaq, təmir, bərpa etmək və daxilindəki tikililərdən səmərəli istifadə etmək lazımdır.***

Bəs, Zaqatala qalasını tikən Rus generalı - İvan Fydroviç Paskoviç feldmarşalı haqqında nə bilirik? Bəlkə də, I Nikolayn hakimiyyəti dövründə ən işğalçı, qan içən və qatı düşmən mövqeli general desək səhv etmərik. Rus generalı İ. F. Paşkeviç əvvəlcə 1830 -cu ildə Cənubi Qafqaza hücum edərək Naxçıvanı, İravanı. Təbrizi işğal edib. Tarixi mənbələrə görə o, 1830 -cu ildə Polşada baş verən üsyanı yatırıb və Varşavada knyaz titulu qazanıb. Paşkeviç Azərbaycanın taleyini həll edən Türkmənçay müqaviləsinə imza atıb. O, bundqan başqa Parisin alınmasında, Macarıstanda üsyanın yatırılmasında, Rusiya və Türkiyə arasında gedən müharibəsində iştirak edib və Almaniyada vuruşub. Rus generalı - feldmarşal işğalçılıq siyasətini davam etdirmək məqsədilə I Nikolayın göstərişi ilə Zaqafqaziyada olan Rus qoşunlarının komandan general Paskeviç Zaqatalaya gəlib və burada müdafiə xarakterli tarixi qala tikdirib.

Məlum olduğu kimi keçmiş Car-Balakən ərazisi hərbi-strateji cəhətdən çox əlverişli idi. Belə ki, Azərbaycanın şərqinə Şəki-Şamaxı-Bakı istiqamətlərinə və Dağıstana gedən yollar buradan keçirdi. Əlverişli hərbi-strateji mövqeyə malik olan Zaqatala hələ qədim zamanlarda xarici qəsbkarların diqqətini cəlb etmişdir. Car-Balakən qəzası Rusiyanın taleyinə keçdikdən sonra (1804 -cü il) onun hərbi-strateji əhəmiyyətini nəzərə alan çar hökuməti Zaqatala şəhərinin günbatan hissəsində qala tikdirmək qərarına gəlmişdi. Məhz, buna görə də, Zaqatala qalası Zaqafqaziyada olan rus qoşunlarının komandanı general feld-marşal İ. F. Paskeviçin əmri ilə tikilmişdir. Qalanın tikilməsi üçün əlverişli olan yer Paskeviç tərəfindən seçilmiş və burada yaşayan əhali başqa yerə köçürülmüşdür. Qalanı tikdirməkdə çar hökuməti iki məqsəd güdürdü.

***1. Rus işğalçılarına qarşı gələcəkdə yerli əhalinin qaldıracağı qiyam və üsyanların yatırılmasında dayaq məntəqəsi rolunu oynamalı.***

***2. Dağıstanı cənubdan tutmaq üçün.***

Artıq 1830 -cu il böyük qüvvələr qarşısında tab gətirə bilən Zaqatala qalasının divarlarının tikintisinə başlanıldı. Əvvəlcə qalanın divarları burada olan sıx meşəlikdən qırılmış ağaclardan hörülmüşdür.

### *Üçbucaq şəklində*

olan qalanın iki tərəfi şərq və qərbdən sıldırımdır. Şimal tərəfdən yer səviyyəsindədir. Mühafizə məqsədi ilə hasarın çöl tərəfindən eni 10 metr, dərinliyi 5 metr olan xəndək azılmışdır.

Qalanın sahəsi 11,5 hektardır, divarların uzunluğu 3000 metrdir, hündürlüyü 3-5 metrdir. Qalanın 3 böyük qapısı var:

***1. ŞƏRQ QAPISI: Zabit qapısı adlanır. Bu qapıdan rus ordusunun komandir heyəti istifadə edirdi. Qapı Zaqatala şəhərinə açılır.***

***2. ŞİMAL QAPISI:** əsgər qapısı adlanır. Əsgərlər təlim keçmək üçün bu qapıdan qaladüzünə çıxırmışlar.*

***3. ŞİMAL-QƏRB QAPISI: Nəqliyyat qapısı adlanır. Qalaya qoşun üçün lazım olan ərzaq, silah, hərbi sursat bu qapıdan daşınırdı.***

Tarixi mənbələrə görə qalada daima olaraq 2500 əsgər, bəzən isə vəziyyət hərbi xarakter aldığı zaman Zaqatala qalasında 8-10 minə qədər əsgər yerləşdirilmişdir. Qeyd edək ki, Zaqatala qalası XIX əsrin əvvəllərində tikilsə də köhnə sistemli qaladır. Qalanın şimal-qərb bürcü müşahidə bürcü olunmuşdur. Bürc iki mərtəbəli olub, üstünə çıxamaq üçün torpaq yol salınmışdır. Onun altında və divar boyu içəri tərəfdən dustaqları saxlamaq üçün kameralar, karserlər və həbsxanalar tikilmişdir.

Qala XIX əsrin tikilisi olmasına baxmayaraq orta əsr qalalarında olduğu kimi müsahirədən çıxmaq üçün qalanın altında yeraltı iki yol çəkilmişdir. Yeraltı yollar qalanın altı ilə iki istiqamətə uzanır:

***1. Qala ərazisindəki kilsənin yanından şəhərə doğru;***

***2. Qalanın ərazisindən şimala, qaladüzü istiqamətinə gedib çıxır.***

Müxtəlif vaxtlarda böyük hərbi qüvvələr qalanı müsahirədə saxlasalar da onu ələ keçirə bilməmişlər. Məsələn: 1830 -cu il Zaqatala üsyanına kömək məqsədi ilə Dağıstanın İmamı Həmzət bəy 2000 nəfərlik qoşunla qala üzərinə hücuma keçdi. Məğlubiyyətə uğrayan çar qoşunları hələ tikintisi başa çatmayan qala divarları arxasında müdafiəyə çəkilərək kömək üçün yeni qüvvələr gözlədilər. Qalanı hücumla ala bilməyəcəyini yəqin edən Həmzət bəy müharibəni saxlamalı olur. Ancaq tezliklə 4500 nəfərlik rus qoşunu müsahirədə qalanların köməyinə gəldi. Böyük qüvvə üstünlüyünə malik olan rus qoşunları Həmzət bəyin üsyanını amansızcasına yatırdılar.

Şeyx Şamil hərəkatı dövründə (1834-1859) qala rus ordusunun düşərgəsi və başlıca hərbi məntəqəsi idi. 1859 -cu ildə Şamil 15 minlik qoşunla Car kəndinə gəldi. Onun məqsədi Zaqatala qalasını tutub vilayətdəki rus qoşununu məhv etmək idi. Lakin, qalanı tutmaq bu məşhur sərkərdəyə də nəsib olmayıb.

**Unutmayaq ki, 1863 -cü il Zaqatalada böyük üsyan baş verdi. Üsyana keçmiş çar zabiti, əslən Balakənli olan Hacı Murtuzun və Kebeloba kəndindən Zəngi Əfəndinin başçılığı altında üsyançı dəstələr Zaqatala qalası üzərinə hücuma keçdi. Üsyanın başlıca siması Zəngi əfəndi idi. Şiddətli top atəşləri onları pərən-pərən saldı.**

Çarizmin müstəmləkəçilik siyasətinə qarşı başlanmış daha bir azadlıq mübarizəsi yatırıldı. Üsyan yatırıldıqdan sonra üsyanın başçıları hesab olunan 18 nəfər qala düzü ərazisində edam olunur, onların içərisində Zəngi Əfəndi də vardı. 1864 -cü ildə Dağıstan Rusiyaya birləşdirildikdən sonra, yəni Qafqaz qəti olaraq Rusiyaya birləşdirildikdən sonra Zaqatala qalası öz əvvəlki hərbi əhəmiyyətini itirmişdi. Lakin belə bir qalanın həm də Rusiyanın mərkəzindən çox uzaqlarda, ucqar bir yerdə olması imperator II Nikolayın yadından çıxmamışdı: 1905 -ci il inqilabı çaxnaşmaları Rusiyanın hər tərəfini bürüdüyü zaman bu qalanın mövcud olması təzədən yada düşmüşdü. Qara dəniz, Baltik dənizi, Sakit okean hərbi donanmalarında inqilabi çıxışları ilə çarizmi hədələyən matrosları susdurmaq, onların içindəki inqilabi əhval-ruhiyyəni vurub çıxarmaq məsələsi mütləqiyyət üçün ən mühüm bir məsələ idi.

### *Rusiyanın mərkəzlərindən*

**bu xətanı tezliklə uzaqlaşdırmaq, onun fəhlə rayonlarına yoluxa bilməsi təhlükəsini aradan qaldırmaq üçün təcili tədbirlər görmək lazım gəlirdi. Rusiya mərkəzdən partlamaq təhlükəsində idi. 1905 -ci ilin yayında "Potyomkin" zirehli gəmisinin qırmızı bayraq qaldıraraq, inqilabçı matrosların əlinə keçməsi çarizmə böyük zərbə idi.**

"Potyomkin" matroslarının üsyanı xəstəlik kimi imperiyanın başqa donanmalarına da yayılmışdı. Məlum olduğu kimi "Potyomkin" zirehli gəmisi Puminiya hakim dairələri tərəfindən Rusiyaya qaytarıldıqdan sonra onun adını bir daha xatrılamamaq üçün gəmiyə yeni bir ad verilmişdir: "Svyatoy panteleymon". Ancaq gəminin adı dəyişdirilsə də onun matroslarını dəyişdirmək mümknü olmadı. 1905-1907 -ci il inqilabından sonra inqilab ruhunu Rusiya mərkəzindən uzaqlaşdırmaq və matrosların qəlbindən çıxarmaq üçün imperqator Zaqatala qalasını münasib bildi. Bu matrosların inqilabı ruhunu boğmaq, onları diz çökdürmək, Xarkov ətrafında öz qəddarlığı ilə məşhur olan kapitan Dobrovolskiyə tapşırıldı. İnqilabçı matrosların Zaqatalaya sürgün edilməsi Zaqatala qalasının adını bir daha tarixə yazdı. Qalada 201 -ci Lebedinski ehtiyat polkunun II batalyonu yerləşdirilmişdi. Dobrovolskiyə podpolkovnik rütbəsi və külli ixtiyar verildi. Dobrovolski imperatorun qarşısında diz çöküb, and içdi ki, bütün qüvvəsini sərf edərək matroslarda inqilab adına nə varsa hamısını son zərrəsinə qədər vurub çıxaracaq, onları imperiya qarşısında müti bir qul kimi diz çökdürəcəkdir və bu yolda heç bir şeyini əsirgəməyəcəkdir.

### *Dobrovolskinin batalyonu*

***yarısı piyada əsgərlərdən, yarısı da əyninə boz əsgər şineli geydirilmiş Qara dəniz matroslarından ibarət idi. Sayı 400 -ə çatan bu matroslara silah etibar edilmirdi. Matrosları daim nəzarət altında saxlayır, onları çox incidirdilər. Batalyonda inqilabi əhval-ruhiyyə hökm sürməkdə idi. Matroslar batalyon komandiri Dobrovolskiyə xüsusilə nifrət edirdilər. Buna görə, batalyonda yaradılmış inqilabi özək Dobrovolskinin öldürülməsi haqda qərar çıxarır. Bunu matros Kuk etməli idi. Ancaq satqınlıq nəticəsində o, ələ keçdi. Bu işi matros Stepan Demeşko başa çatdırdı. O, 1997 -ci ili iyulun 10 -da axşam batalyon rotalarından birini yoxlayıb evə qayıdan Dobrovolskini qalanın zabit qapısından bir qədər aralıda güllə ilə vurub öldürdü. Hərbi Məhkəmənin hökmü ilə S. Demeşko 1907 -ci il sentyabrın 7-də V Plastun batalyonunun kazakları tərəfindən güllələndi.***

Böyük Oktyabr sosialist inqilabından sora Çar qoşunları Zaqatala qalasını tərk edib, Rusiyaya qayıtmalı oldular. Müsavat hakimiyyəti zamanı Zaqatala qalasında Əhməd bəy Dibirovun komandan olduğu Müsavat piyada polku yerləşdirilmişdi. Azərbaycanda Sovet hakimiyyətinin ilk günlərindən Zaqatala qalası qəza inqilab komitəsinin qərərgahına çevrildi. Z. Balaxlinski, F. Kutsin, S. Qocayev, M. Qocayev və başqa inqilabçılar rayondakı inqilabi mübarizəyə məhz buradan rəhbərlik edirdilər.



Banditizmə qarşı mübarizə aparan çekiistlərin Dövlət Siyasi idarəsi burada yerləşdirildi. Sonralar qala ərazisində azyaşlıların islah olunması üçün təcridxana da qalada idi. Daha sonra Zaqatalada Sovet dövründə tütün kombinatı, Rayon Mərkəzi Xəstəxanası, 1967 -ci ildən Zaqatala diyarşünaslıq muzeyi, mebel fabriki, 1 № -li rus internat məktəbi, Gənc Texniklər Stansiyası fəaliyyət göstərmişdir.

Müstəqillik elan olunduqdan sonra Daxili qoşunların ilk N saylı hərbi hissəsi qalada yerləşdirildi. Həmin hərbi hissənin komandiri hal-hazırda Daxili Qoşunların baş komandiri olan, general-polkovnik Şahin Məmmədov olub. Hal-hazırda Zaqatala Dövlət Rəsm qalereyası, Zaqatala şəhər Mədəniyyət evi qalada yerləşir. Qeyd edək ki, Zaqatala qalasında "Yenilməz batalyon", "Cavad xan" kimi məşhur tarixi filmlərin çəkilişləri aparılıb.

Zaqatala Qala Tarixi Qoruğunun direktoru Anar Laçınov söhbət zamanı bildirdi ki, məlum karantin rejimi ilə əlaqədar bu tarixi məkanlara gələnlərin sayı xeyli azalıb. Digər tərəfdən Azərbaycanın xarici ölkələrlə sərhədlərinin bağlı olması da Zaqatalaya turistlərin və xarici vətəndaşların səyahətlərində azalma müşahidə edilir. Direktorun sözlərinə görə, Qala Tarixi Qoruğunun qorunması, elmi araşdırmaların aparılması, bərpa işlərinin görülməsinə və əsil turizm məkanına çevrilməsi üçün böyük ehtiyac var.

### *Belə dəyərli tarixi abidələrin qorunması,*

yaşadılması və gənclərimizə təbliğ etməsi önəmli məsələdir. Yaxşı olardı ki, aidiyyatı təşkilatlar bu tarixi məkana vaxtaşırı turlar təşkil etsəydi yaxşı olardı. Tarixi Mədəniyyət Qoruq muzeyinin elmi işçisi, bələdçisi - Səbuhi Bayramov isə söhbət zamanı bildirdi ki, hələ bir neçə il əvvəl bu tarixi məkanı turizm mərkəzinə çevirmək üçün buraya gələnlərin səmərəli istifadəsi üçün - Kanat yolunun çəkilməsi, Qoruğun mərkəzindəki meydançada uşaqların əyləncəli kartinq oyunlarının təşkili üçün şəraitin yaradılması, Çar zabitlərinin yaşadıqları, boş qalan 40 otaqlı yataqxananın, buraya gələn turistlərin istifadəsi üçün otelə çevrilməsi, ailələrin asudə vaxtlarının təşkili üçün ailəvi kafenin yaradılması üçün Nazirlər Kabinetinə təkliflərlə müraciət ediblər. Ancaq, indiyə qədər həmin təkliflərlə bağlı hələ də Nazirlər Kabineti tərəfindən cavab verilməyib.

Səbuhi Bayramov onu da əlavə etdi ki, məktəblilər, gənclər bu tarixi qoruğu tez-tez seyr etsələr, onalrın həm dünya görüşü artar, həm də tarixi biliklərinin artmasına müsbət təsir edər.

**Söz yox ki, işğalçı rus generalı İvan Fyodroviç Paşkayeviçin müdafiə məqsədilə tikdirdiyi bu əzəmətli Zaqatala qalası bütün dünyaya səs salan bir tarixi məkandır. Tarixi mədəniyyət qoruğunu qorumaq, yaşatmaq, tanıtmaq, eyr etmək və dərindən öyrənmək isə hər bir vətəndaşın borcudur.**

**Elman Maliyev**
**AJB-nin üzvü,**
**araşdırmaçı - jurnalist**

(əvvəli ötən sayımızda)

# Barıt çəlləyi partladı

**... Sentyabrın 27-də səhər saat 6:00-dan Ermənistan silahlı qüvvələri atəşkəsi pozaraq bütün cəbhə boyu istiqamətlərdə mövqelərimizi atəşə tutdular. Eyni zamanda, Füzuli istiqamətində də ermənilər ağır artilleriyadan və toplardan yararlanaraq yaşayış məntəqələrimizi və bir çox strateji əhəmiyyətli mövqelərimizə zərbələr endirdi. Ancaq çox keçmədi ki, Azərbaycan ordusu onlara bir-birinin ardınca layiqli cavablar verdi. Düzdür, Cocuq Mərcanlının və Horadizin atəşə tutulması ermənilərin ən böyük səhvi idi. Və bu çanaq da onların başında çatladı. Və ermənilər düşünürdülər ki, Cocuq Mərcanlıda yarımstansiyanı sıradan çıxarmaqla nəyəsə nail olacaqlar.**

Və həmişə də onlar döyüşə başlayarkən yaşayış məntəqələrini, əhalinin sıx olduğu yerləri atəşə tutublar. Bu atəş zamanı həm Füzulidə, həm də Cəbrayılda mülki əhali arasında yaralananlar olub. Amma çox keçmədi ki, ermənilər Azərbaycan ordusu tərəfindən ağır zərbələr aldılar. İrimiqyaslı hücum əməliyyatı zamanı Füzulinin



kənd Horadiz (onu da deyək ki, bu, rayonun ən iri kəndlərindən biridi), Qaraxanbəyli, Qərvənd, Yuxarı Əbdürrəhmanlı kəndləri və eləcə də Cəbrayılın Böyük Mərcanlı, Nüzgar yaşayış məntəqələri 27 illik işğaldan sonra azad edildi. Təbii ki, Azərbaycan ordusunun bu möhtəşəm qələbəsi həm Füzuli, həm də Cəbrayıl camaatı arasında çox böyük ovqat və ruh yüksəkliyi yaradıb. Üstəlik də insanlar axın-axın yollara çıxır, ordumuzun yanında olur və onunla həmrəyliyini bildirirlər.

### Horadizin gözəlliyi ermənilərin gözünə girib

***... Hər dəfə döyüş başlayanda ermənilər çalışırlar ki, yenidən tikilmiş və inşa olunmuş Horadiz şəhərinə zərbələr endirsin. Düzdür, bu döyüş zamanı müəyyən yerlərə mərmilər də düşüb. Ancaq dağıntı bir o qədər də nəzərə çarpmır. Yəni Azərbaycan Ordusunun apardığı operativ əməliyyat nəticəsində ermənilərin Cocuq Mərcanlı və Horadiz şəhərinə yaxın olan bütün yüksəkliklər ələ keçirildi. Və bu gün demək olar ki, Horadiz şəhərində iş günü davam edir. Belə bir məqamda biz də bir neçə yerə baş çəkməli oluruq. Elə birinci baş çəkdiyimiz ünvan "Füzuli Mərkəzi Rayon Xəstəxanasının" Publik Hüquqi Şəxsin direktoru Natiq Şükürov öz kabinetində idi. Və belə bir şəraitdə biz onunla az da olsa söhbət etməyə nail oluruq. Təbii ki, müharibə şəraitində işləmək və bütün səhiyyə sistemini idarə etmək özü də böyük məsuliyyət tələb edir. Natiq həkim deyir ki, Füzuli səhiyyəsi 24 saat fəaliyyətdədir. Bu zaman kəsiyində biz həm mülki əhalinin, həm də döyüş zamanı baş verən, xəsarət alan əsgərlərimizin xidmətindəyik. Və bütün yaşayış məntəqələrində fəaliyyət göstərən xəstəxanalar və tibb məntəqələri də müharibə şəraitinə uyğun işləyir.***

Öncədən onu qeyd edim ki, bütün tibbi ləvazimatlar və preparatlar və eləcə də digər zəruri avadanlıqlar bizim xidmətimizdədir. Və heç bir çətinlik və sıxıntı keçirmədən Füzulinin bütün tibb personalı öz üzərinə düşən funksiyanın öhdəsindən bacarıqla gəlir. Döyüş başlayan ilk saatdan bu vaxta qədər bizim hamımız iş başındayıq, hər hansı mövcud təhlükəni və problemi həll etmək gücündəyik. Heç bir həkim, heç bir cərrah, heç bir tibb bacısı Füzulidə iş yerini tərk etməyib. Elə mənim özüm səhərə qədər iş başında olmuşam və bir saat da yatmamışam. Təbii ki, bizim hər birimizdə çox yüksək nikbinlik var. Bu nikbinliyi də Azərbaycan ordusu yaradıb. Qısa zaman kəsiyində 7 kəndimiz işğaldan azad olunub. İstər-istəməz vətənin keşiyində duran və onun torpaqlarını qoruyan Azərbaycan Ordusunu bu uğurlar bizə bir daha yenidən sevdirir!

### Biz Prezidentə və Ordumuza inanırıq!

Bu fikri bizimlə söhbətində Yeni Azərbaycan Partiyasının Füzuli rayon şöbəsinin sədri Almaz Həşimova deyir. Və biz də Almaz xanımla Horadiz şəhərində YAP-ın rayon şöbəsindəki qərargahında görüşürük. Almaz xanımdan savayı digər partiya üzvləri də gərgin işləyirlər və üzərlərinə düşən missiyanı yerinə yetirirlər. Və ən sevindirici hal odur ki, bu gün Horadiz şəhərində bütün müəssisələr, istehsalat sahələri öz fəaliyyətindədir. Bu da ona dəlalət edir ki, ordakı insanlar Azərbaycan Prezidentinə və onun möhtəşəm ordusuna güvənir. Ara-sıra top, artilleriya səsi eşidilsə də, insanlar çox sakitdilər. Elə YAP-ın Füzuli rayon şöbəsinin sədri Almaz xanım da partiya üzvlərinin bu müharibə dönəmində necə mücadilə etdiyini və mübarizə apardığını bizim diqqətimizə çatdırır. Xanım bildirir ki, biz Azərbaycan Prezidentinə və Azərbaycan Ordusuna güvənirik. Ermənilər Horadiz şəhərini ağır artilleriyadan və toplardan atəşə tutsa da, bəzi dağıntılar yaransa da, amma bu nə Füzuli camaatını, nə də Horadizdə yaşayıb-işləyən insanları ruhdan sala bilmədi. Ən azından ona görə ki, bu gün Horadizdə hətta qadınlar iş başındadılar və silaha sarılıb düşmənlə döyüşməyə hazırdılar.



### Bütün füzulilər Azərbaycan Prezidentinin və Azərbaycan Ordusunun yanındadı

***Bu gün Füzulidə böyükdən kiçiyə hamı ayaq üstədi, cənab Prezidentə və Azərbaycan Ordusuna dəstək verir. Füzulinin 5 kəndi işğaldan azad olunandan sonra insanlar əllərində bayraq Bakı-Horadiz yolunda hərəkət edərək orduya arxa durur və döyüşmək istədiklərini bildirirlər. Rayonun Böyük Bəhmənli, Bala Bəhmənli, Əhmədbəyli, Mahmudlu, Aşağı Yağlıvənd, Kərimbəyli, Babi, Araytılı, Şükürbəlyi, Alxanlı və eləcə də Yeni salınmış Zobucuq və Qayıdış qəsəbəsindən yüzlərlə insan rayon mərkəzinə gələrək döyüşmək istədiklərini bildirirlər. Rayonun Böyük Bəhmənli kəndindən tanıdığım 50-yə yaxın gənc əlində bayraq səfərbərlik idarəsinin Füzuli rayon şöbəsinə gələrək könüllü surətdə döyüşmək istədiklərini bildirirlər.***

Rayonun bütün kəndlərində, bütün qəsəbələrində, bütün yaşayış massivlərində yaşayan insanlar böyük coşqu və sevgiylə "biz vətənimizi qoruyuqur!" - deyərək ordunun yanında olduqlarını bildirirlər. Bu möhtəşəmlik,



bu sevgi 2016-cı ildə də qabarmışdı, indi də bir daha yenidən vulkan kimi püskürür, 7-dən 77-yə qədər bütün insanların bir yumuruq kimi birləşərək torpaqlarımızı erməni işğalından azad etməyə səsləyir. Artıq yatmış şir oyanıb. Bunun qarşısında nə erməni ordusu, nə onun Livandan, Suriyadan gətirdiyi muzdluları, nə də PKK kimi terrorist döyüşçüləri dura bilməyəcək. Heç havadarları da onlara qahmar çıxmayacaq. Artıq onların "əmiləri", "dayıları", "bibiləri" prezident İlham Əliyevə yalvarmağa başlayıblar. Artıq bu həna o hənadan deyil. Artıq torpaqlarımız işğaldan azad olunacaq, ermənilər çəkilib öz xarabasına gedəcək, 8 rayonumuz geri qayrılacaq və bundan sonra danışıq masası arxasına keçmək olar. Azərbaycan xalqı bu gün Azərbaycan Prezidentinin və Azərbaycan Ordusunun yanındadır.

### Füzuli şəhərinin bir addımlığında...

... Artıq səhər saatlarından xəbərlər alırıq ki, ordumuz Füzulinin daha bir neçə kəndini işğaldan azad edib. Bəli, bu orduya, bu əsgərə, bu döyüşçülərə güvənmək olar. Artıq səhər saatlarında Müdafiə Nazirliyi bir məlumat da yaydı ki, ordumuzun döyüşçüləri ermənilərin iki tankını sıradan çıxarıb. Və həmin görüntülər müxtəlif televiziya kanallarında da nümayiş etdirildi. O səhnəyə baxanda bir daha sevinc hisslərini yaşadıq. Tanklar məhv edilərkən onun qarşısında və arxasında hərəkət edən erməni əsgərləri ora-bura qaçırdılar.

Və artıq erməni ordusu pərən-pərən düşüb. Onlar ağır texnikanı, tankları, topları, qrad qurğularını qoyub dabanına tüpürərək qaçıblar. Çünki arxadan gələn oyanmış şirdi! O şirin qabağında çaqqal-çuqqal, tülkü və onun havadarları dayana bilməyəcək! Artıq Azərbaycan Ordusu Füzuli şəhərinin bir addımlığındadır. Onların nələr keçirdiyini, hansı hisslər yaşadığını mən yaxşı bilirəm. Çünki torpaq həsrəti, vətən həsrəti çəkənlər torpağın azad olunmasının nə olduğunu hamıdan yaxşı bilirlər. Bu gün Azərbaycan əsgəri Füzuli şəhərinə doğru irəliləyir... bu gün Azərbaycan ordusu gözünü qırpmadan Cəbrayıl istiqamətində döyüşləri uğurla davam etdirir... bu gün döyüşən oğullar əsarət altında 27 ildir ki, qalıb bizi gözləyən torpağımızı azad edərək onu geri qaytarır...

Müharibənin öz qaydaları var: düşmənə qarşı heç vaxt rəhm etmək olmaz! Zori Balayan kimi alçaq yazırdı ki, Xocalı işğal olunanda südəmər uşağı evin divarına mıxlayıblar. Və uşaq da ağlayanda onu kiritmək üçün anasının döşünü kəsib ağzına soxublar. Dünya müharibəsində heç vaxt belə cəlladlıq, amansızlıq olmayıb. Heç faşistlər də belə hərəkət eləməyiblər. Amma faşistlərin eləmədiyini ermənilər Xocalıda, Qaradağlıda, Kəlbəcərdə, Ağdamda, Füzulidə... eləyiblər. Onlar bizim əhaliyə nə eləyiblərsə, biz də o qisası almalıyıq. Qoy dünya birliyi nə deyir desin, yurdumuzu dağıdanların yurdunu dağıtmalıyıq... ana-



bacımızı öldürənlərin ana-bacısını öldürməliyik... hamilə qadınlarımızın süngü ilə qarnını cırıb körpə uşağı doğruyanların qarınlarını cırmalıyıq... uşaqlarını da doğramalıyıq. Müharibədə humanistlik, ürəyi yumuşaqlıq keçmir. Çünki anası, arvadı, qaynanası erməni olan vəzifəli şəxslər uzun müddət o torpaqları qaytarmağa və qisasımızı almağa imkan verməyiblər. İndi torpaqlarımızı azad etdikcə, ermənilərdən qisasımızı da almalıyıq.

### Təndir çörəyi

***Füzulinin "dördyol" deyilən yaşayış sahəsində çoxlu sayda təndir çörəyi bişirilən yerlər var. Xüsusən də Bala Bəhmənli kəndi ərazində yerləşən bu təndirlərdə heç yerdə ətri, dadı olmayan çörək bişirilir. O çörəyin ətri 10-15 metrdən hiss olunur. Səhər saatlarından düz axşama qədər bu təndirdə çörək bişirilir. Müharibə başlayan ilk gündən bir gün də olsun təndir çörəyi bişirlməyi dayanmayıb. Və orda işləyən ana-bacılarımız çox çətin şəraitdə çörək bişirirlər və əhalini təndir çörəyi ilə təmin edirlər. Hətta hərbçilərimizin ordan çörək aldıqlarının şahidi oluruq. Özü də qara çörəyə daha çox üstünlük verilir. Mən çörək bişirən həmin qadınların bir neçəsi ilə söhbət eləyirəm.***

Onlar deyirlər ki, sentyabrın 27-si səhər saatlarında döyüş başlasa da, biz təndirimizi qaladıq, xəmirimizi yoğurduq və kündəmizi təndirə yapdıq. Çörəklərimiz də çox qəşəng bişib. Biz çörək bişirdiyimizə baxmayın ha, lazım gəlsə döyüşə də bilərik. Bu gün vətənin ən ağır günüdür. Və ən ağır günündə biz öz üzərimizə düşən işin öhdəsindən bacarıqla gəlirik və heç birimiz bu yurdu, bu təndiri tərk edib gedən deyilik...

### Qələbə bizimlədir

... Cəbhənin bütün bölgələrində ağır döyüşlər gedir. Və ağır döyüşlərə Azərbaycan Ordusu ilə yanaşı, on minlərlə könüllülərlə qoşulmaq istəyir. Bu həm də Vətən müharibəsidir. Vətən müharibəsi hər bir insanı vətən daşı olmağa, onu qorumağa səsləyir. Azərbaycanda hamı bir nəfər kimi bu döyüşə, bu mücadiləyə hazırdır!.. Əgər 55 min adam könüllü surətdə döyüşmək istəyirsə, onda görün bu nə böyük bir qüvvədir. Heç Ermənistan ordusunda 55 min döyüşçü yoxdur. Hətta mən yazını bilgisayara diqtə eləyərkən qəzetimizin hər iki əməkdaşı Gülər və Mehriban xanım döyüşə getmək istədiklərini bildirirlər. Eşq olsun, belə qızlarımıza! Və Azərbaycanda Gülər xanım kimi, Mehriban xanım kimi minlərlə kişi qeyrətli xanımlar cəbhəyə gedib ordumuzun yanında dəstək olaraq döyüşmək istəyirlər. Haqq-ədalət bizim tərəfimizdədi. Çünki biz işğal altında olan torpaqlarımızı azad etmək istəyirik .

**Bir o Allah şahiddir ki, Azərbaycan heç kimin torpağına göz dikməyib. Ona görə də bu xalq, bu millət ürəyini buz kimi saxlaya bilər: Böyük Qələbə bizimlədir!!!**

**Faiq QİSMƏTOĞLU**
**"Ədalət"in xüsusi müxbiri**
**Bakı-Füzuli-Bəhmənli-Horadiz-Bakı**

## Nazirlik: Hər bir gəncimiz ön cəbhədə döyüşməyə hazırdır

**Gənclər və İdman Nazirliyi bəyanat yayıb.**

Adalet.az-ın məlumatına görə, bəyanatda deyilir:

Sentyabrın 27-də saat 06:00 radələrindən etibarən Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusu dərhal genişmiqyaslı əks hücum əməliyyatlarına başlamışdır. Düşmən qısa müddət ərzində layiqli cavabını almış, böyük itkilər vermişdir. Azərbaycan ordusu 7 kəndimizi, Murov dağı silsiləsindəki Murov zirvəsi və Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyi işğalçı qüvvələrdən təmizləyib. Ordumuzun zəfərlərindən qürur duyaraq, uzun illərdi bü-



tün sahələrdə aktiv iştirak edən gənclərimiz, saysız-hesabsız beynəlxalq yarışlarda qələbələr qazanıb, bayrağımızı yüksəldərək himnimizi səsləndirən idmançılarımız adından bildiririk ki, biz hər zaman olduğu kimi Prezdient İlham Əliyevin siyasətini dəstəkləyirik. Hər bir gəncimiz, yaşından asılı olmayaraq idman ictimaiyyətinin hər bir üzvü Ali Baş Komandanın ətrafında sıx birləşib. İstənilən an ordumuza qoşulmağa, ön cəbhədə döyüşməyə hazırdır.

"Bu işğala son qoyulmalıdır və qoyulacaq! Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır!". Ali Baş komandanın bu sözləri hər bir azərbaycanlının hədəfi, amalı, arzusudur.

## Ömrün müdrik çağları

**Bədii yaradıcılıq coşqun dağ çeşmələrinə bənzəyir.Axdıqca axıb çaylara, sonsuz-ümmanlara qovuşur.Lakin hər bir sənətkar qovuşduğu ümmana eyni cür deyil, özünəməxsus şəkildə öz ətri, öz rəngi, öz səsi və nəfəsi ilə gəlib çatır.Bu gün səksən beş yaşının dizlərini qatlayıb kürəyini yerə vuran Əvəz Lələdağın yaradıclığı da fərdi poetik çalarları, milli-mənəvi koloriti, xəlqi ruhu ilə oxucuların zövqünü oxşayır, onların ürəyinə yol tapır.**

Sumqayıt ədəbi mühitinin formalaşıb yetkinləşməsində Xasay Cahangirli, Mir Sabir, Əşrəf Veysəlli , Qüdrət Muğanlı, Rafiq Yusifoğlu və digər yaşlı nəslin nümayəndələri arasında Əvəz Lələdağın ayrıca yeri və rolu vardır.Ə.Lələdağ bədii yaradıcılığa şeirlə gəlsə də sonralar onun yaradıcılığı publistik və dramaturji əsərlərlə zənginləşmiş və çoxşaxəli bir yaradıcılığa çevrilmişdir.

Ancaq onu ən çox oxuyuculara sevdirən dərin mənalı poetik örnəkləri olmuşdur.

Əvəz Lələdağ Sumqayıt ədəbi mühitinə özü ilə doğulub, boya-başa çatdığı Zəngəzur mahalına bənzərsiz ətrini gətirmişdir.Onun şeirlərini oxuyanda həssas qəlbli oxucu sanki özünü qədim oğuz ellərində hiss edir.İndi düşmən tapdağı altında qalan qədim yurd yerlərimiz şairin şeirlərində kəndləri, obaları, aşırımları, gədikləri, meşələri, bulaqları.. ilə poetik sözün sığalına gəlir, gözlərimiz qarşısında canlanır.Bu cür şeirləri ilə Ə.Lələdağ ulu yurdun bədii xəritəsini yaradır.Zəngəzurun fiziki coğrafiyası şairin qoşma və gəraylılarında kövrək ruhlu bayatılarında poetikləşərək bənzərsiz bir mənzərə yaradır.Mübaliğəsiz demək olar ki, Əvəz Lələdağın şeirlərində bədii estetik məzmun qazanan toponim, hidronim, oykonim və sair kimi yer-yurd adlarına başqa qələm sahiblərinin yaradıcılığında o qədər də rast gəlmək olmur.Fikrimizcə, bunun başlıca səbəbi Ə.Lələdağın kəndə-kəsəyə qırılmaz tellərlə bağlılığında qan yaddaşının gücündədir.

*Bura Əyriqarın ağaran qaşı,*
*Bu da Üçtəpənin göbəkli daşı.*
*Məni ovsuladı hər addımbaşı,*
*Təzəcə açılmış güldü naxışlar.*

Poetik yaradıcılıqda dağlar Vətənin vüqarı, əyilməzlik və igidlik simvolu kimi tərənnüm olunur.Ə.Lələdağın dağlar mövzusunda iyirmiyə yaxın müxtəlif rədifli qoşma və gəraylısı vardır.Bu şeir-



lərdə o, dağların təbii gözəlliklərini təsvir və tərənnüm etməklə kifayətlənmir.Şair dağları etnoqrafik mərasimlərin, zəngin adət ənənələrin vəhdətində obrazlaşdırır.Silsilə epitetlər, mənalı təşbehlər, orijinal metaforalar, duyumlu xalq deyimləri bu obrazlılığa yeni bir təravət gətirir, şeirlərin emosionallığını və effektivliyini daha da artırır, məna tutumunu genişləndirir.

Əvəz Lələdağ xalqımızın milli mənəvi dünyasına-onun tarixi keçmişinə, dərd və kədərinə bu günün gözü ilə baxan bir şairdir.Onun şeirlərində mənəvi dərdlər, sağalmaz yaralar həmişə təzədir, başqa sözlə, şair çəkilən dərdləri , özünün çəkdiyi əzabları, fərdi yaşantıları təzələməyi bacarır.Dərd təzələnirsə özündən də təzələnib möhkəmlənir.Əsil poeziyanın gücü və möcüzəsi də elə bundadır.Dərd insanı özünüdərk, özünüdərk isə müdrikliyə aparır.Ə.Lələdağ səksən beş illik ömrünün, altmış illik poetik yaradıcılığının müdrikliyini yaşayır.Bu müdriklik onu gənclik eşqi ilə yazıb-yaratmaqa şövq edir, gərgin axtarışlarda onun yaradıcılıq əzablarını yaşamağa çağırır.El-oba harayı, Qarabağ dərdi, dədə-babalarımızın həsrəti, azğın düşməninə nifrəti, işğalçılara qarşı mübarizəyə çağırışı onun zəngin yaradıcılığının əsas xəttini təşkil edir.Biz də,o gəlimli-gedimli təzadlar dünyasında şair dostumuzun 85 illik yubileyini ürəkdən təbrik edir, onu oxucuların intizarında olduğu yeni əsərlərlə görməyi arzulayırıq.

*Dünyanın nizamı sözdən qurulub,*
*Necə olur olsun, son söz gələcək.*
*Lələdağ, bu illər gör necə keçdi*
*Səksən beş, doxsan beş və yüz gələcək!*

**Aftandil Ağbala**
**Professor, Əməkdar jurnalist**

# Putin Humanistdir?



Çingiz Nağıyev

**Bu günlərdə internetdə maraqlı bir yazı oxudum. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin qaragül dəridən hazırlanan general papaqlarının tikilməsini qadağan edib. Bunun səbəbi məni çox maraqlandırdı. Həmin mövzunu açıb diqqətlə oxumağa başladım. Belə məlum oldu ki, Rusiyanın Prezidenti Putin çox humanist bir addım atıb. Ona məlum olub ki, Rusiyada generalların, aleqarxların, çox varlı adamların başlarına örtdükləri qaragül quzu dərisindən hazırlanan papaqlar anadan olan kimi kəsilən bir günlük quzuların dərisindən hazırlanır. Həmin quzuların dərisini soyub, aşılayıb sonra bu dəridən papaq və ya bahalı paltolara varatnik hazırlayırlar.**

### *Bir günlük*

quzunun kəsilib dərisinin soyulması insanlığa yaraşmayan bir işdir. Bu çox qəddar bir əməldir deyən möhtərəm Putin bundan sonra belə quzuların kəsilməsini Həşdərxanlılara qadağan edib. Mən bu sərəncamı ürəkdən alqışladım. Mövzunu hələ qapamamış bir də qərar hissəsini diqqətlə oxudum. Doğrudan da bu qərar böyük bir humanistlikdir və ən yüksək səviyyədə alqışa layiqdir. Amma mövzunu bir də gözdən çekirəndə diqqətimi Putinin fotosu cəlb etdi. Putinin başında həmin qaragül gəridən papaq var idi. Əvvəl düşündüm ki, yəqin bu papaq ona hədiyyə ediləndə Putin papağın hansı dəridən, necə hazırlandığı haqda məlumatsız olub. Bu papağın hazırlanma prosesindən xəbəri olandan sonra ürəyi dözməyib, bəlkə də bir qədər kövrəlib, insani hisslər onu silkələyib və Putin qəti olaraq qərar verib və bir günlük quzuların kəsilməsini, bu dəri istehsalını, belə papaqların hazırlanmasını və belə quzuların ətinin restoranlarda yeyilməsini qadağan edib. Təbii ki, bu qərar ancaq Rusiya Federasiyasına aiddir. Yaxşı ki, bizə aid deyil yoxsa bizim baz- burutlu kişilər papaqsız qalıb öz kişiliklərini şübhə altına qoyardılar. Axı bizim bəzi generallar da Rusiyalı böyük qardaşlarına oxşamaq üçün başlarına belə papaqlar qoyurlar. Hələ özlərini generala oxşatmaq istəyən adi milyonerləri demirəm.

Bir də düşündüm ki, bəlkə Putinə verilən məxvi məlumatlarda Rus qızlarının başqa ölkələrin- yəni müsəlman ölkələrinin oğlanları ilə ailə həyatı qurmalarının ildən- ilə çoxalması xəbəri onu əsəbiləşdirib və belə qərar verib. Onu da belə əsaslandırıb ki, bir halda ki, buzdə bu papaqlara layiq kişilər yoxdur, qızlarımız İrana, Turana, müsəlman ölkələrinə üz tuturlar onda bu yazıq quzuları niyə gandan edirsınız. Bu mənim qənaətimin birinci variantıdır. Axı Putin özü də kişidir və başında da qaragül quzunun dərisindən papaq var. Bəs 2020-ci ilin avqust ayında belə qərar verilməsinə Putini nə məcbur edib.

### *Çox düşündüm*

və mənə belə gəldi ki, yəqin Putin elə bu günlərdə, 68 yaşında qaragül dəridən papaq tikilməsi haqqında əhatəli məlumatlandırılıb. Elə bu fikrimin də üstündə dayandım.

Axı həmişə bizə təbliğat aparıblar ki, filan rəhbər vəziyfəli şəxs yaxşı adamdır amma ətrafındakılar cani, quldur,qaniçən, rüşvətxor, korrupsioner və ən ləyaqətsiz, insanlığa sığmayan əməllərlə məşğul olan yaramazlardır. Biz də həmişə bu təbliğata inanmışıq.

***İndi mən buna necə inanmayım. Əgər, on il qabaq qaragül quzuların faciəli talehi haqqında hörmətli Putinə məlumat versəydilər və desəydilər ki, möhtərəm prezident sizin 30 il qabaq da, indi də başınıza qoyduğunuz papaqlar bir günlik qaragül quzuların dərisindən hazırlanmışdır. O, da qadağan sərəncamını on il qabaq verərdi. Gör neçə milyon qaragül quzu həyatını itirməzdi, böyüyüb yekə qoyun olardı. Həmin qoyunlar gütləşib nə qədər artardı və donuz saxlamağa ehtiyac qalmazdı. Hər 2-3 ildən bir donuz qripi də Rusiyada yayılmazdı. Onlar bilmirlər ki, Allah qoyunu yaradanda onu insanlara halal edib və qoyunu bir çox indiki eybəcər xəstəliklərdən hifs edib.***

Bəs Putinin ətrafındakı yaramaz məmurlar qaragül quzunun dünyaya gəldiyi gün və ya bir gün sonra, doyunca ana südü əmməmiş, anasının gözləri qarşısında qatillərin əli ilə kəsilib, dərisinin soyulduğunu möhtərəm prezidentə indi nə üçün deyiblər. Bir variant da var ki, ola bilsin qaragül dərisi ilə məşğul olan mafiya yuxarıların aylıq haqlarını vaxtında çatdırmayıblar və onların adları qara siyahıya düşüb. Bu variant da inandırıcıdır. Ona görə ki, müasir dövrün qaydaları ilə səsləşir. Hər gün eşidirik ki, filan nazir, filan aliqarx, icra başçısı, lap adi idarə müdiri əməllərindəki cinayət xarakterli işlərə görə həbs edilib və evindən, villalarından milyardlar, milyonlar, qızıl- ziynət əşyaları çıxıb.



***Təbiidir ki, onlar mənimsədikləri milyardları, milyonları bir gündə qazanmayıblar. Onlar uzun illər dövlətdən oğurlamaq və xalqı soymaqla məşğul olublar. Amma ya ödənişi vaxtında aparıb çatdırmayıblar, ya da iri məmurlardan kiminsə qəzəbinə tuş gəliblər. Bütün bunlar müasir rusiyalıların hər gün şahidi olduqları reallıqlardır.***

Hə hörmətli oxucular bağışlayın mən bir qədər mövzudan kənara çıxdım. Amma şübhələrə aydınlıq gətirmək üçün belə manevrlər etməyə bəzən ehtiyac duyulur.

Qayıdaq Qaragül quzular haqqındakı söhbətimizə. Hörmətli, humanis prezident cənab Putin tərəfində qaragül quzulara verilən aministiya aktına. Yenə deyirəm mən bunu çox yüksək qiymətləndirirəm və bu qərardan sonra həmyaşıd olduğum Putinə mənim hörmətim bir xeyli artdı və onun yaxın ətrafındakılara nifrətim daha da çoxaldı. Bu məqamda başıma başqa bir fikir gəldi. Bəlkə qaragül quzular kimi dünyada insanların başına gələn ən faciəli hadisələr haqqında möhtərəm prezident Putinə heç vaxt doğru-düzgün məlumat verməyiblər. Mən hələ onların dünyanın çox yerində törətdikləri qeyri- insai əməlləri demirəm. Özgələrin başına nə işlər gəlir nəyimizə lazımdır.

### *Təkcə xatırlatmaq istəyirəm ki,*

Qərbi Azərbaycan torpaqlarından- ata baba yurdlarından ayaqyalın- başıaçıq qovulan, yollarda ölüb qalan uşaqlar, qadınlar, qocalar haqqında cənab Putinə həmin o, simasız məmurlar vaxtında və düzgün məlumat verməyiblər. Belə humanit bir prezidentin bəlkə Xocalı faciəsindən heç xəbəri yoxdur. Bəlkə heç bilmir ki, Xocalıda o vaxt Rusiyanın 366-cı hərbi alayının bütün texnikası və hırbiçiləri ilə birlikdə ermənilər Azərbaycanlılara hücum edib 613 nəfəri qətlə yetiriblər. Onlardan 63 nəfəri qaragül quzu kimi körpə uşaqlar olubdur. 106 nəfəri bütün bəşəriyyətin ləyaqıtli insanlarının qarşısında baş əydiyi namuslu qadınlar, 70 nəfər isə qadın, kişi ixtiyar qocalar olubdur. Yəqin möhtərəm Putinin xəbəri yoxdur ki, ermənilər 1275 nəfəri elə həmin gün Xocalıda əsir götürüb aparıblar indi də qul kimi işlədirlər. Ermənilərin və Rus hərbiçilərinin Xocalıda törətdiyi cinayət nətiycəsində 487 insan həmin gün itkin düşüb. Burda yadıma bizim qonşuluğumuzda halal zəhmətlə yaşayan, malının, mülkünün qədrini, qiymətini bilən bir müəllimə düşdü.

O, hərdən bir axşam qaranlıq düşəndən sonra qonşuların həyətini gözib itən toyuğunu axtarır.

### *Bəs necə olur*

bu qədər əsir düşənləri, itgin düşənləri axtaran yoxdur.Mən inanmıram ki, qaragül quzudan ötrü kövrələn Putinin Qarabağda və bütovlükdə keçmiş Sovet respublikalarında insanların başına açılan min cür müsibətlərdən xəbəri vardır. Əgər möhtərəm Putin erməni yazıçı Zori Balayanın Qarabağadakı əməllərindən və bu haqda yazdığı romanda təsvir etdiyi 13 yaşlı müsəlman oğlanin diri- diri pəncərənin çərçivəsinə mismarlanıb başının və qarnının dərisinin soyulmasından, qışqırıb kefimizi pozmasın deyə həmin uçağın öldürdükləri anasının döşünün kəsilib ağzına basılmasını ermənilərin necə ləzzətlə müşahidə etdiklərindən xəbəri olsaydı qaragül quzunun faciəsi onun üçün adiləşərdi.

***Bəlkə də cənab Putin ətrafındakıların həqiyqətən necə qəddar, qaniçən olduqlarını anlayardı. Belə faktlar çoxdur, mən onların hamısını yada salıb nə cənab Putini nə də oxucuları kövrəltmək istəmirən. Amma nə vaxtsa bunlardan xəbərdar olan bir Türk oğlu meydana çıxacaq. Bax buna inanıram və həmin ləyaqətli insanlar cənab Putinə də doğru məlumatlar verib, haqqın, ədalətin bərpasına nail olacaqlar. O gün uzaqda deyil. Mən həmin günün üfüqdəki parıltısını görürəm.***

Rusiya ordusunda Astarxan (Həştərxan) dəbli baş geyimlərindən imtinanın səbəbi açıqlanıb.

Rusiyanın məşhur "Modnıy Priqovor" televiziya şousunun aparıcısı, moda tarixçisi Aleksandr Vasiliyev orduda yeni doğulmuş quzu dərisindən hazırlanmış papaqlardan imtinanı belə izah edib:

"Bu, heyvanlara qarşı hümanist münasibətin təzahürüdür.

**Ölkə rəhbərliyi quzuların tələf edilməsini və dərilərindən papaq düzəldilərək orduda istifadə edilməsini istəmir. Əgər biz orduda Astraxan papaqlarının geyinilməsinə qarşıyıqsa, deməli quzuların kəsilməsi və ətindən istifadəsinə qarşı da olmalıyıq. Bəlkə də bununla bağlı ölkəmizdə məcburi veqanizm tətbiq ediləcək". Vasiliyev vətəndaşları restoranlarda quzu ətindən hazırlanmış yeməklərdən imtina etməyə çağırıb. Qeyd edək ki, Rusiya Prezidenti Vladimir Putin Müdafiə Nazirliyinin təklifi əsasında ordu generallarına quzu dərisindən hazırlanmış Astraxan papaqlarından istifadəni qadağan edib.**

# "Qərbi Azərbaycanın coğrafiyası"

*(I məqalə)*

**Erkən və son mərhələ orta əsrlərdə, eləcə də yaxın yüzilliklərdə Bütöv Azərbaycanın qərb bölgələrinin (Göyçə gölü və dağları hövzəsi, Zəngəzur dağlıq ərazisi, Araz çayı sahilləri, Ağrı dağının ətəkləri...) tarixi keçmişi, təbii-coğrafi şəraiti, kökənli müsəlman-türk əhalisinin maddi-mədəni irsi və dini dünyagörüşü, ictimai-sosial vəziyyəti haqqında bu ərazilərə səyahət etmiş italiyalı Marko Polonun (1254-1324) "Marko Polonun kitabı" (1298), iranlı coğrafiyaşünas Əbül-Qasim İbn Xordadbehin (820-912) "Yollar və ölkələr haqqında kitab", ərəb yazıçısı, tarixçisi və coğrafiyaçısı Şahabəddin Yaqut əl-Həməvinin (1178-1229) "Ölkələr haqqında lüğət", alman səyyahı Adam Olearinin (1599-1671) hazırladığı qlobusda (1654-1664-cü illərdə) təsvir edilən ərazilərdə və göstərilən toponimlərdə, rus tədqiqatçıları S.M.Bronevskinin (1763-1830) "Qafqaz haqqında yeni coğrafi və tarixi məlumatlar" (1823) və Y.A.Poxomovun (1880-1965) "Azərbaycan tarixinin qısa kursu" (1923)... əsərlərində həm də tarixi-coğrafi dövlətçiliyimizlə bağlı mühüm faktlar verilmişdir.**

### *Azərbaycan dövlət tarixçiliyndə*

orta əsrlər və sonrakı dövrlərdə mövcud olmuş Eldənizlər (1136-1225-ci illər) və Səfəvilər (1501-1722-ci illərİ) dövlətlərinin əhatə etdiyi Qərbi Azərbaycan regionunun (Qarabağ dağlıq yaylası ilə Zəngəzur dağlıq silsiləsinədək olar ərazilər, Şahdağ (Şərqi Göyçə) silsiləsindən Göyçə gölü istiqamətində Şərur-Dərələyəz dağlıq silsiləsinə, Araz çayına, Ağrı dağına və Gümrü şəhərinə kimi uzanan geniş təbii-coğrafi ərazilər, 30 min kv.km sahəni əhatə etməklə) 1813-cü il oktyabr ayının 12-də Murov dağının yamacında, İncəçay çayı hövzəsindəki (indiki Goranboy rayonuna aid) Gülüstan kəndində (XI maddədən ibarət), 1828-ci il fevral ayının 13-də Təbriz şəhəri yaxınlığınakı Türkmənçay kəndində bağlanmış (XVI maddəli) Rusiya (Romanovlar hakimiyyəti) - İran (Qacarlar sülaləsinin) dövlətləri arasındakı eyni adlı mürtəcə müqavilələr hesabına mütləq inzibati-siyasi baxımından idarə edilməsi itirilmişdir.

XVIII əsrdə Qərbi Azərbaycan ərazisi bütünlüklə Naxçıvan, Qarabağ və Gəncə xanlıqlarının (Gəncə bəylərbəyliyinin) əhatəsində yerləşən İrəvan xanlığının, eləcə də Şəmşəddil sultanlığının (1747-1801-ci illərdə, sahəsi 4481,4 kv.km) inzibati-idarəetmə sisteminə aid edilmişdir.

XIX əsrdə çar Rusiyasının Qafqaz canişinliyinin idarəçiliyinə verilmiş Azərbaycan hüdudlarının sərhəd xətlərinin keçdiyi və 1918-1920-ci illərdə Azərbaycan Cumhuriyyətinin qərb bölgələrini əhatə edən tarixi-coğrafi ərazilər 1850-ci ildə tətbiq edilmiş inzibati-ərazi bölgüsünə uyğun olaraq İrəvan quberniyasının 7 qəzasınında (Aleksandropol-Gümrü, mərkəzi Gümrü şəhəri; İrəvan, mərkəzi İrəvan şəhəri; Naxçıvan, mərkəzi Naxçıvan şəhəri; Sürməli, mərkəzi İqdır şəhəri; Şərur-Dərələyəz, mərkəzi Baş-Noraşen kəndi; Üçmüəzzin, mərkəzi Sərdarabad kəndi və Yeni Bəyazid, mərkəzi Yeni Bəyazid kəndi) paylanmaqla təqribən 1,5 milyon nəfərə qədər əhalini əhatə etmişdir.

1867-ci ildə Yelizavetpol (Gəncə) quberniyasının yaradılması nəticəsində Şuşa qəzasına aid olan Zəngəzur mahalının torpaqları hesabına mərkəzi Gorus şəhəri olmaqla eyni adlı qəza yaradılır. Eləcə də, Naxçıvan qəzasının tərkibindəki Mehri nahiyəsi də Zəngəzur qəzasına daxil edilir.

### *Çar Rusiyasının*

***Tiflis şəhərində yerləşən Qafqaz Hərbi Dairəsinin Hərbi Topoqrafiya bölməsi tərəfindən çap edilən "Cənubi Qafqaz. 1903-cü il" xəritəsində Qazax qəzasının qərb sərhəddi Göyçə gölünün 5 km-dən keçməklə, Çubuqlu-Toxluca-Ağbulaq kəndləri boyunca (bu kəndlər indi Qərbi Azərbaycan ərazisindədir) uzanaraq Şahdağ zirvəsində (3216 m) kəsişirdi, bu hissə Çaykənd, Dilican, Əmir-Xeyir, Çəmbərək, Gölkənd, Polad Ayrım kəndlərini əhatə etməklə "İncə dərəsi"nin qərb hissələrini, İncəsu çayının mənbəyini tuturdu. Sonrakı mərhələdə qəzanın Yuxarı Əskipara,***




***Sofulu və Barxudarlı kəndləri anklav (əhatəsindəki ərazilərdən asılı olmayan idarəetmə formasında) halında Qaraqoyunlu (haylar 1938-ci ildə adını dəyişərək Noyamberyan qoymuşlar, 1995-ci ildən Tavuş vilayətinə (mərzliyinə) daxildir) nahiyəsi daxilində saxlanılmış, idarəetməsi Qazax payonuna aid olmuşdur.***

Eyni hal, Şərur rayonunun (hazırda Sədərək) Kərki inzibati-ərazi vahidinə (19 kv.km) də şamil edilmişdir. Bu yaşayış məntəqəsi 1990-cı ildə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən zəbt edilərək adı dəyişdirilmiş, Tiqranaşen kəndi kimi Ararat vilayətinə daxil edilib.

1920-ci ildə İrəvan quberniyası (Naxçıvan və Şərur-Dərələyəz qəzalarının qərb hissələri istisna olmaqla) və Zəngəzur qəzasının qərb hissəsi yeni yaradılmış Ermənistan Respublikasının yaradılması naminə Azərbaycan Respublikasının idarəçiliyindən çıxarılmış, inzibati-coğrafi sərhədləri zorla dəyişdirilmişdir.

Qərbi Azərbaycanın inzibati-ərazi bölgüsü (indiki Ermənistan Respublikası ərazisi) 1920-1928-ci illərdə 10 qəzaya və 1929-cu ildə 5 dairəyə (Zəngəzur, Lori, Sevan, Leninakan, İrəvan) ayrılsa da, 1930-cu ildən 36 rayon yaradılmışdır.

Hazırada bu region 11 vilayət (əvvəlki adlar dəyişdirildiyindən toponimlər yabançı dildədir: Araqatc - mərkəzi Aştarak şəhəri; Ararat - Artaşat (Qərbi Azərbaycanın Araz çayı yaxınlığındakı ən qədim, yaşı iki min ilə çatan Qəmərli şəhərinin dəyişilmiş adı) şəhəri; İrəvan - İrəvan şəhəri; Armavir - Armavir (1932-ci ilədək Sərdarabad adlanıb, İrəvan vilayətində ən hündür Alagöz dağının (4090 m, adı dəyişdirilərək "Araqats" qoyulub) ətəyində yerləşir, 1992-ci ilədək Oktamberyan) şəhəri; Vayots-Dzor (Dərələyəz toponiminin dəyişdirilmiş halı) - mərkəzi Yexeqnadzor şəhəri; Syünik - Qafan şəhəri; Şirak - Gümrü şəhəri; Tavuş - İcevan şəhəri; Kotayk - Razdan (Zəngi çayı sahilində salınan Aşağı Axta kəndi adlanıb 1959-cu ilədək) şəhəri; Qeqarkunik - Vardenis (1969-cu ilədək Basarkeçər adlanıb) şəhəri; Lori - Vanadzor (1935-ci ilədək Qarakilsə adlanıb, 1935-1992-ci ilədək Leninakan) şəhəri) daxilində 53 inzibati-icma formalı idarəetmə sistemi tətbiq edilir.

### *Təbii-coğrafi yerləşmə*

***xüsusiyyətinə görə Qərbi Azərbaycan regionu (Ermənistan Respublikasının 1995-ci ildən sonra tətbiq etdiyi inzibat-ərazi bölgüsü baxımından) Gürcüstan Respublikası (Tavuş, Lori və Şirak vilayətləri üzrə) , Türkiyə Cumhuriyyəti (Şirak, Armavir, Araqats və Ararat vilayətləri boyunca), Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası ilə (Ararat, Vayots-Dzor və Syünik vilayətləri hüdudlarında) həmsərhəddir.***

Ayrı-ayrı oroqrafik relyef və hidroqrafik şəbəkə müxtəlifliyinə görə qeyd edilən bu sərhəd qonşuluğunda yerləşən Qarabağ dağlıq yaylası (Dəlidağ zirvəsi, 3616 m) və Zəngəzur dağlıq silsiləsi (Qapıcıq zirvəsi, 3906 m) Mehri, Qafan, Gorus nahiyələrini (indiki Syünik vilayəti) əhatə edir, cənubundan isə Araz çayı axır (120 km məsafədə), Şahdağ silsiləsinin qərb yamacları ilə Göyçə gölü (Qərbi Azərbaycanda ən hündür (1926 m) dağ gölü, ən dərin yeri 78 m) və dağı hövzəsi Basarkeçər nahiyəsini (adını dəyişib Qeqarkunik vilayəti qoyublar), Şərur-Dərələyəz dağlıq (Kükü dağı, 3120 m) silsiləsinin şimal, şimal-qərb hissəsi Araz çayı ətrafını, Ağrı dağının (Anadolu yaylasının ən hündür yeri, 5165 m) vadisini, Ağbaba və Şirəel mahallarını (hayca Vayots-Dzor və Ararat vilayətləri adlanır) tutur. Türkiyə Cumhuriyyəti ilə Qərbi Azərbaycan regionu (Armavir, Araqats və Ararat vilayətləri boyunca) Araz çayı və Ağrı dağı ilə sərhədlənir.

### *Qərbi Azərbaycan hüdudlarında,*

***mərkəzi hissədə iri oroqrafik relyef formaları sırasında Arazboyu Ağrıdağ vadisi (haylar Ararat düzü adlandırıb), Pəmbək (Hamamlı aşırımı, 2375 m; Şiş Əhməd (haylar Tejler adlandırıb) zirvəsi, 3101 m), Göyçə dağlıq silsilələri (Acıdağ zirvəsi, 3597 m) və Basarkeçər silsilələri (Çaxırlı yaylası, Basarkeçər zirvəsi, 3521 m; sonuncu iki silsiləni Səlim aşırımı, 2410 m ayırır) xüsusilə səciyyəvidir.***

Qərbi Azərbaycan ərazisi cənubqərbdən, cənubdan xarici ölkələrdən Türkiyə Cumhuriyyəti və İran İslam Respublikası (Mehri dağlıq silsiləsi, 3256 m; Araz çayı boyunca), şimalda isə Gürcüstan Respublikası ilə (Borçalı yaylası, Çətin dağı, 2243 m) hüdudlarında qonşuluq yaratmışdır.

**Göründüyü kimi, regionun təbii-coğrafi şəraitinin mürəkkəbliyi və zənginliyi ərazinin tarixi, ictimai-iqtisadi, beynəlxalq strateji əhəmiyyətinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.**

**Qismət Yunusoğlu,**
**BDU-nun müəllimi**

## *Qərb niyə antirus ritorikasından istifadə edir?*



**Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bildirib ki, Qərb dövlətləri daxili ziddiyətlərini ört-basdır etmək üçün antirus, antibelarus ritorikasından istifadə edir.**

"Bu gün antisovet, antirusiya və antibelarus ritorikasından istifadə etməklə, 2000-ci ildən davam edən daxili ziddiyətlərini ört-basdır etmək üçün özlərindən Rusiyanın simasında "ümumi düşmən" obrazı yaratmaq istəyirlər"- deyə o, Belarus &-Rusiya reqionlarının VII forumunda çıxışı zamanı bildirib.

Rudenkonun sözlərinə görə bir sıra ölkələr və birliklər saxtalaşdırılmış tarixə və siyasi texnoloqların uydirma fikirlərinə istinad edərək, yeni dünya düzümü yatatmaq istəyirlər.

Onun fikirincə Qərb dünya ictimayyətini inandırmağa çalışır ki, İkinci dünya müharibəsinin başlanmasında SSRİ və faşist Almaniyası birgə məsuliyyət daşıyırlar. Bunu etməklə onlar, müharibə sonrası dünya düzümünün leqitimliyini şübhə altına almaq istəyirlər.

Rudenko çıxışında qeyd edib ki, "Moskva və Minsk ənənəvi olaraq tarixi həqiqətlərin saxlanılması uğrunda birgə mübarizə aparır".

**Belarus XİN-in müavini Aleksandr Quryanov da öz növbəsində, tarixin saxtalaşdırılmasına qarşı iki ölkənin parlametarilərinin mübarizə apardığını, nasizmin qəhrəmanlaşdırılmasına qarşı birgə mübarizənin davam etdiriləcəyini bildirib.**

**Rüstəm HACIYEV**

## *Düşmənin itkiləri arasında çoxlu sayda muzdlu döyüşçülər var*



**"Düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni əsilli muzdlular da var".**

Bunu Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

Onun sözlərinə görə, əldə olunan kəşfiyyat məlumatına əsasən, onlar Ermənistanda rəsmi qeydiyyata alınmadığı üçün düşmən bu itkiləri asanlıqla gizlədir:

"Əvvəlki döyüşlərdə olduğu kimi, bu dəfə də Ermənistanın hərbi-siyasi rəhbərliyi hərbi məlumatların yayılmasına tətbiq edilən qadağanı əsas gətirərək döyüş itkilərini ictimaiyyətindən gizlədir.

Qeyd edək ki, itkilərin sayının çox olması səbəbindən bir müddət sonra düşmən bu itkiləri müxtəlif şəraitdə baş vermiş hadisə kimi göstərərək, etiraf etmək məcburiyyətində qalacaq".

## *Fəxrəddin Altun: Beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzü qarşısında bir daha susur*

**Beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzü qarşısında bir daha susur. On illərdir hərəkətsizlik və qeyri-qanuni işğal ilə ortaqlıq erməni tərəfini cəsarətləndirdi. İndiki münaqişə bu vəziyyətin davamlı olmadığını göstərir.**

Adalet.az-ın məlumatına görə, bunu Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fəxrəddin Altun özünün "Twitter" hesabında yazıb.

O vurğulayıb ki, Ermənistan Azərbaycan torpaqlarının işğalçısıdır: "Ermənistan on illərdir nəinki Dağlıq Qarabağı işğal edir, həm də Azərbaycana qarşı mütəmadi təxribatlar həyata keçirir. Bugünkü hücumları isə daha bir təhlükəli vəziyyətə səbəb oldu".

## *Ermənistanın dinc əhaliyə hücumları davam edir: Yerli sakinlər isə qorxmadan evlərindədir*



**Ön xətdə Azərbaycan Ordusunun əks-hücumu qarşısında tab gətirməyən düşmən cəbhəboyu ərazilərdəki yaşayış məntəqələrini, mülki insanların evlərini artilleriya atəşinə tutmaqda davam edir. Cəbhə bölgəsində yerləşən digər rayonlarda olduğu kimi, Tərtərdə də yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində mülki şəxslərdən ölən və yaralananlar var, evlərə və infrastruktura ciddi ziyan dəyib.**

Trend-in məlumatına görə, Tərtər rayonunda düşmənin atəşinə məruz qalan ərazilərə gedərək, qəhrəman tərtərlilərlə həmsöhbət olub.

Tərtər şəhər sakini 84 yaşlı Aşur Muradov düşmən təxribatlarına baxmayaraq heç zaman doğma şəhərini tərk etmədiyini bildirdi: "İstər 1990-cı illərin əvvəllərində, istərsə də sonrakı dövrlərdə - 2016-cı ilin aprelində Tərtər dəfələrlə düşmənin hücumlarına, top atəşlərinə məruz qalıb. Amma nə mən, nə də ailəm heç vaxt şəhərimizi tərk etməmişik. Çünki biz öz torpaqlarımızdayıq, öz şəhərimizdəyik və Vətənimizi sevirik. Düşmən bilsin ki, təxribatları ilə heç nəyə nail ola bilməyəcək. Qüdrətli ordumuz bütün torpaqlarımızı işğalçılardan azad edəcək".

Sonra ermənilərin ağır artilleriyadan açdığı atəş nəticəsində dağılan evlərdən bir neçəsinə baş çəkdik. Tərtər şəhər sakini Zenfira Sultanova ilə düşmən mərmisinin partlaması nəticəsində dağılan evinin qarşısında söhbət etdik. O bildirdi ki, mərmi evə düşən vaxt xoşbəxtlikdən evdə olmayıblar: "Biz evdən çıxandan 10 dəqiqə sonra mərmi düşdü. Evi yeni təmir etmişdik. Ancaq evimizin dağılmasına görə məyus olmuruq. Təki erməni işğalına son qoyulsun. Təki qələbə qazanaq".

Digər sakin Elxan İsmayılov dedi ki, ermənilər şəhəri atəşə tutanda küçədə olub: "Qəfildən yaxınlıqda güclü partlayış səsi eşidildi. Baxdım ki, evimiz dağılıb".

Tərtər rayonunda məcburi köçkünlər üçün salınan yaşayış kompleksi də düşmənin artilleriya atəşinə məruz qalır. Biz yaşayış kompleksində olarkən də ərazidə çoxsaylı mərmi partlayışlarının şahidi olduq. Lakin partlayış səsləri və dağıntılara baxmayaraq məcburi köçkünlərin çöhrəsində nikbinlik, qələbəyə əminlik, torpaqlarımızın işğaldan azad olunacağına böyük inam hiss edilirdi.

Elə Kəlbəcər rayonundan olan məcburi köçkün Münəvvər Cəmilova da tezliklə doğma yurdlarına qayıdacaqlarına əminliyini ifadə etdi.

"Eşidilən atəş səsləri, partlayışlar bizi qorxutmur. Hər birimizi düşündürən əsas məsələ doğma torpaqlarımızın azad olunmasıdır. Ordumuzun bir sıra kəndlərimizi və yüksəklikləri azad etməsi xəbərini eşidəndə sevincdən gözlərimiz yaşardı.

Murov zirvəsinin azad edilməsi isə doğma Kəlbəcərimizə qayıtmaq inamımızı daha da artırdı. Biz ordumuzun qələbə qazanacağına, bütün torpaqlarımızın azad olunacağına əminik", - deyə Kəlbəcərdən olan məcburi köçkün bildirdi.



*FƏRİDƏ HİCRAN (VƏLİYEVA)*
*Filologiya üzrə fəlsəfə doktoru*

# MUXTAR ÖMƏRXAN OĞLU AUEZOV VƏ ABAY KUNANBAYEV FENOMENİ

**XX əsr bədii nəsr sahəsində xüsusi yeri olan və Muxtar Auezovu dünya ədəbiyyatında tanıdan "Abay" romanı, qədim tarixə, zəngin mif və xalq ədəbiyyatı ənənələrinə malik Qazax xalqının həyat və məişəti ilə yanaşı XIX əsrin 60-80-ci illərində qazax qəbilələrinin taleyi ilə bağlı xüsusi fəaliyyəti olan Kunanbayın və onun oğlu Abayın həyatını da çox şəffaf şəkildə əks etdirir.**

Abay XIX əsr Qazax yazılı ədəbiyyatının inkişafında, tənqidi realizm prinsipləri daxilində ədəbiyyatın yeni məzmun, yeni forma qazanmasında müstəsna xidmətləri olan bir sənətkardır. O XIX əsr qazax realist ədəbiyyatının ən böyük şairidir. 200-ə yaxın şeir, 3 poema və 45 nəsr əsərinin müəllifi olan Abay Kunanbayev demokratik ideyalar carçısı kimi xalqının istək və arzularını, çətinliklərini, mübarizə əzmini realist tərzdə qələmə alan və hər zaman xalqının taleyini düşünən bir mütəfəkkir olmuşdur..

Ümumiyyətlə XIX əsr qazax yazılı ədəbiyyatının üç böyük nümayəndəsi - Çokan Vəlixanov, İbray Altınsarın və Abay Kunanbayevin irsi Qazax ədəbiyyatında dərin iz qoymuşdur.

***Abay Kunanbayev 10 avqust 1845-ci ildə Tobıkdı qəbilə başçısı ailəsində dünyaya gəlib. Atası Kunanbayın ciddi, həm də sərt xarakterli şəxs olması və bu sərtliyin sonralar Abay Kunanbayevə də münasibətdə özünü göstərməsi onun qəlbində atasına qarşı kəskin küdurət yaratmışdır. Abayın əsl adı İbrahim olub. Anası Ulcan xatunun onu nəvazişlə "Abay" kimi çağırmasından sonra qəbilədə Abay adı ilə tanınmışdır. Abay sözünün lüğəvi mənasının nəzakətli, mehriban mənalarını ifadə etməsi və Abay Kunanbayevin sevimli anasını uşaq yaşlarından itirməsi, ədibin sonralar bu adı özünə təxəllüs seçməsinə səbəb olmuşdur.***

### *Abayın atasının sərt və qəddar siması*

Muxtar Auezovun "Abay" romanında çox aydın şəkildə izlənir. Bu məlum həqiqətə baxmayaraq o, nə qədər qəddar olsa da, oğlunu təhsilli görmək istəmiş və bu arzu ilə 1857-ci ildə onu Semipalatinskdə Əhməd Rza mədrəsəsinə təhsil almağa göndərmişdi. Abay isə, mədrəsədə əlavə olaraq fərdi şəkildə ərəb, fars və cığatay dillərinin də incəliklərini öyrənməyə başlayıb və bir müddətdən sonra mədrəsə təhsilini yarımçıq saxlayıb, burada fəaliyyət göstərən rus məktəbinə getmişdir. Heç şübhəsiz, bu təhsil gənc Abayın rus və Avropa mədəniyyəti ilə tanışlığına şərait yaradıb, onun dünyagörüşünə müəyyən təsir göstərmişdir.

Abay Semipalatinskdə 5 il oxuduqdan sonra atasının təkidi ilə təhsilini yarımçıq qoyub Tobıkdıya qayıdır. Atasının məqsədi oğlunu qəbilə rəhbəri kimi formalaşdırmaq olsa da, qeyri adi təfəkkürə malik olan Abayla atası arasındakı ziddiyyətlər kəskinləşir və 1873-cü ildə Abay Kunanbayev atasına etiraz edib ondan ayrılır. Bu ziddiyyətlərin kökündə atasının feodal dünyagörüşü, onun Abayın anasına olan ögey və qəddar münasibəti, qonşu qəbilələrə, o cümlədən Abayın özünə qarşı sərt rəftarı və s. dayanırdı. Bütün bu yaşantılar Muxtar Auezovun "Abay" romanında incəliklərinə qədər bədii ifadəsini tapır və əsərdə göstərildiyi kimi, babasının Auezovda Qazax ədəbiyyatının banisi Abay Kunanbayeva qarşı aşıladığı məhəbbət, şeirlərini nəvəsinə əzbərlətməsi müəllifin gələcəkdə bu cür möhtəşəm roman yaratmasına səbəb olur.

### *Roman iki kitabdan ibarətdir*

***Birinci kitab 1942-ci ildə, ikinci kitab isə 1947-ci ildə nəşr olunmuşdur. Romanda Abay Kunanbayevin uşaqlıq və gənclik illəri əksini tapsa da əsas yeri Qazax qəbilələrinin taleyi tutur. Romanın ikinci silsiləsi "Abayın yolu" adlanır və iki hissədən ibarət bu silsilədə isə atası Kunanbaydan ayrılıb yeni bir əqidə ilə yaşayan Abayın ictimai-siyasi fəaliyyətinin coşqun bir dövrü əks olunur. "Abay" və "Abayın yolu" romanı Qazax xalqının ictimai həyatının fonunda bir nəslin taleyindən çox kənara çıxaraq zəmanənin dərin ziddiyyətlərini göstərmək baxımından da çox dəyərlidir. Romana görə sənətkar ardıcıl şəkildə təqib və təzyiqlərə məruz qalmış və bir çox epizodlar, obrazlarla bağlı süjetlərdə dəyişikliklər edilmişdir.***

Digər tərəfdən Abay zəmanəsinin görkəmli mübariz və qabaqcıl ictimai xadimi olduğundan onun bədii təcəssümü ictimai-sinfi, mübarizənin yollarını hərtərəfli əks etdirə biləcəyi qədər önəmlidir. Bunları nəzərə alan, Auezov bu əsəri işləməyi vacib hesab etmişdir.

Hətta Pənah Xəlilovun bu romanla bağlı araşdırmasında belə bir fikir də vurğulanır: "Abay silsilə romanının sujetini saysız-hesabsız qolu olan nəhəng bir çaya bənzətmək mümkündür.

Başlanğıcını ayrı- ayrı çeşmələrdən alan qollar ümumi məcra ilə birləşərək nəhəng çayın ahənginə tabe olduğu kimi, sərbəst şəkildə inkişafa başlayıb getdikcə güclənən müxtəlif süjet xətləri də axırda bilavasitə Abayla bağlanır və ana xəttə qovuşur."

Əsərdə yer alan çox düşündürücü məqamlar var, Abayla Toqjanın tanışlıq səhnəsindən bəhs edərkən, müəllif süjetin konstruksiyasının önündə qəhrəmanın psixoloji durumunu təbiətlə vəhdətdə göstərir. Ədəbi düşüncə ənənələrinə uyğun olaraq qəhrəmanın eşq aləmi yaz fəslinə paralel bir vüsətlə təsvir edilir. Bu paralelizmə müraciət etməklə ədib əvvəl qəhrəmanının xoş ovqatını, mənəvi dünyasındakı həzz gücünü və yaz çiçəkləri kimi yenicə pöhrələnməyə başlayan sevgi duyğularını ifadə etməyə təşəbbüs edir, sonra isə qəhrəmanın daxili dünyasında baş qaldıran bu hissləri təbiət təsvirləri ilə paralelləşdirir: "Abayın ürəyi qeyri-adi bir duyğu ilə dolmuşdu. Sevgili... Abay insanı həyəcana gətirən bu sözə dəfələrlə kitablarda rast gəlmiş və başqalarından eşitmişdi. Bu gün isə həmin söz kitab səhifələrindən çıxaraq özünün bütün məna və gözəlliyi ilə üzü incə, qaməti gözəl, baxışı insanın qəlbini çalan gənc bir vücudun canlı təcəssümündə, gülüşündə, hərəkət və təbəssümündə özünü göstərir". Müəllifin bu fikirlərindən məlum olur ki, Abayın Toqjana olan saf sevgisi bu an yaranmışdır, içində özünə də məlum olmayan ilahi bir duyğu baş qaldırıb onu silkələmişdir. Abay Taqjanı sevdi...



Muxtar Auezov



Abay Kunanbayev

Müəllif Abay obrazının timsalında duyan, sevən, sevilən kədərlənən, düşünən bir harmonik şəxsiyyət obrazı yaratmağa təşəbbüs edir. Ədibin unutmadığı bir məsələ də diqqəti cəlb edir.

### *Təbiətə yaxın*

***qəlbin özünə əbədi və gözəl həmdəm tapmasının mütləqliyi... Təbiətlə dostlaşanın, təbiəti sevənin özünü tək və tənha hiss etməməsi... Təbiətə vurulmayanın onun ecazkarlığı qarşısında qəlbi riqqətlə döyünməyən insanın kamillik zirvəsinə üz tutmaması, yanlış yola yönəlməsi kimi natamamlığı, qeyri-həyatiliyin nümunəsi kimi görünən bir məxluq olması... sadəcə bir məxluq! Auezovun möhtəşəmliyi də elə bu duyumları ilə başlayır.***

"O, həyəcan içərisində üzünü ulduzlu göyə tərəf çevirdi Dağlardan əsən mehdə təravətli bahar nəfəsi duyulurdu. Abay bu təmiz havada həvəslə nəfəs alırdı. Ay öz seyrində idi. O yavaş-yavaş ən yüksək pilləyə, əlçatmaz ənginliyə doğru üzürdü. O yüksəldikcə ürəkləri də özü ilə bərabər aydın və buludsuz göylərə çəkib aparırdı. Ayın bu işığı düz ürəyə soxulur, insanın qəlbini sevinc və kədərlə doldururdu..." Bu sevgidirmi, odurmu?... Əgər bu sevgidirsə, onda həmin sevginin beşiyi də gecə sakitliyi ilə əhatə olunmuş bu aləmdir... - deyə həyəcana gəlmiş qəlb öz-özünə pıçıldayırdı..." "Yaz gecəsinin təravəti içərisində Abay yalnız onun özü üçün açılmalı olan qeyri-adı, gözəl bir sübhün yaxınlaşdığını hiss edirdi... Aylı gecə, sanki, süd gölündə üzürdü. Hisslərin qüdrətli axını Abayın sinəsinə sığmırdı. Onun qəlbi gah döyünür, gah da dayanırdı. "Bu nə deməkdir? Bunu necə başa düşməli? Mənə nə olmuşdur? "...Toqjanın ağ əlləri, incə boynu Abayın gözü qarşısında canlanmışdı. Onun sübhü Toqjan idi". Bütün bu təsvirlər qəhrəmanın daxili aləmini səciyyələndirsə də, burada Abayın içərisində baş qaldıran sevinc hissləri təcəssüm olsa da "Ay" obrazının təsviri əsərin sonrakı süjetindəki uğursuzluğa bir işarədir. Məlumdur ki, yalnız ay işığına möhtac olan qaranlıq gecə və ay özü istər şifahi, istərsə də yazılı ədəbiyyatda əsasən kədər rəmzi kimi verilir. Süjetdə isə Abayı təbiətin bütün tərəfləri riqqətə gətirir, gah döyünən, gah da dayanan ürəyi sinəsinə sığmır. Abay Toqjana aşiqdir, o, Dildanı sevmir. Ona bu aşiqlik hökmünü ürəyi verib. Lakin Abayın ürəyinin hökmündən daha güclü olan atasının çıxardığı qərar var. Abay bu qərarı poza bilməzdi, zamanın hökmü də buna yol verməzdi. Odur ki, müəllif əsər boyu Abayın həyatında baş verən bu sevginin izlərini vurğulamış, onun şair kimi yetişməsindəki roluna və Toqjana bənzəyən qızların qəlbini yenidən ehtizaza gətirməsinə işarə vermişdir. Abay atasının iradəsinə qarşı çıxa bilməyib Dilda ilə evlənir, lakin xoşbəxt olmur. Romanın məzmunundan aydın olduğu kimi Abay ikinci dəfə ailə qurur. Sevgisinə ulaşmayan Abay ömür yolunu çox sönük hisslərlə yaşasa da onun Toqjana bənzədərək aldığı Aykərim ona həm həyat yoldaşı, həm də sirdaş olur. Abayın Dildanı boşamadan Aykərimlə evlənməsi ona çox baha başa gəlmişdi. Dilda bütün vəcdlə onların arasına nifaq salmağa çalışır və buna da nail olurdu. Müəllif Aykərimin Abaydan inciyib üz döndərdiyi məqamı belə təsvir edir: "Təbiətin özü də sanki, Abayın kədərli həyatına şərik olmuşdu. Sərt payız fəsli başlanmışdı, Eralın və Oykodıkın üstünü duman almışdı, soyuq səhra küləyi əsirdi, gecələr uzun və yağışlı keçirdi"

### *Müəllif çox böyük ustalıqla*

***əsərin ikinci hissəsində Abayı mübariz bir mücadilə səyyahına çevirir. Abay özünə tətbiq edə bilmədiyi xoşbəxtliyi başqasının həyatına vermək istəyir. Əsərin ən maraqlı süjeti Abayın bu mübarizəsi və Əmirlə Umiteyin arasında baş qaldıran sevgi hisslərinin tərənnümüdür. Ədib yenə ənənəvi olaraq əvvəlcə bahar çağı təbiətdə baş verən oyanışla sevgililərin halını assosiasiya edir və bu zaman məhz çiçəklərin, güllərin xüsusiyyətlərindən, zahiri forma və görünüşlərindən, yaşam müddətlərindən ustalıqla istifadə edir. Lakin bu gənclərin sevincli xoşbəxt günləri uzun çəkmədiyi bir məqamda isə təbiətin sərt üzünü nümayiş etdirərək onların əzab və iztirablarını sanki bu çovğunlara bənzədir.***

Diqqət edək, Umiteyi sevmədiyi bir oğlana ərə verirlər. Müəllif burada birbaşa dövrün ictimai siyasi həyatındakı eybəcərlikləri ifşa etməyə səy göstərir. Əsərdə qızın sevgilisi Əmir ayrılığa dözə bilmir. O, bütün adət-ənənələrə zidd çıxaraq ər evinə aparılan Umiteyi qaytarmağa çalışır. Umitey də Əmirə olan məhəbbətini gizlətmir. O hamının gözü qarşısında Əmirə sarılaraq ondan ayrılmaq istəmir. Bu süjet ilə müəllif qəlb ağrıdan bir çox xoşagəlməz ənənələrin zəncirini qırmağa təşəbbüs edir. Əmirlə Umiteyin açıq-aşkar məhəbbəti qızın nişanlısı Dutbaya çox ağır gəlir. Lakin ağıllı və tədbirli cavan, tayfa arasında narazılıq salmaq istəmir. O, Kunanbayın yanına adam göndərir və Əmirə cəza verilməsini xahiş edir. Burada çox qəribə bir məqamla da üzləşirik. Bəzən ziddiyyətləri qəbilə özü həll edə bilmədiyindən məsələyə hökumət adamları - çar çinovnikləri qarışmalı olurlar. Əslində bir ənənə olaraq bu halın bir çox türk xalqlarının taleyində izləndiyini, o cümlədən Qarabağ xanlıqlarında Xurşudbanu Natəvanın nigah problemində çar çinovniklərinin mövqeyini yada salır.

Çox maraqlıdır ki, Əmir, Kunanbayın böyük oğlundan olan nəvəsi idi. Romanda qəzəblənmiş Kunanbay nəvəsini yanına gətirtdirir və onu boğmağa başlayır. Bu eşq hekayəsi sanki ayrıca işlənmiş bir əsərdir və oxucunun bütün diqqətini çəkən bu süjet onu yorulmağa belə qoymur və əksinə əsərə daha çox bağlayır. Süjet sərbəst verilsə də müəllif sonda bu xətti də Abayla bağlayır. Böyük konfliktə çevrilən bu eşq səhnəsində Abayla Kunanbay üz-üzə durur, çəkinmədən atasının cinayətlərini açıq-aydın şəkildə səsləndirir. Onun əlindən Əmiri güclə alan Abay sanki içində boğduğu sevgisinin qisasını almaq, ona ömrü boyu mane olub hər işinə qarışan atasına qarşı çıxmaq istəyirdi: "Ağzında Allahın adı, əlində isə qan? Nə üçün? Axı şəriət də sevgini qadağan etmir.

Bu şəriət sənin bir dəfə tökdüyün günahsız qanı doğrultdu, bəsdir!" Müəllif burda din və din xadimləri məsələsini ortaya atıb hər iki problemin mahiyyətini ayrılıqda açmağa cəhd edir. Diqqət edək, əslində məlumdur ki, bütün türk xalqlarına nisbətən qazax xalqı arasında din kifayət qədər təşəkkül tapmamış, daha çox köçəri həyat tərzi yaşayan bu insanlar məscid, pir və s. bir çox dini məbədlərdən uzaq olmuşdular, lakin eşqin ilahi bir hiss olduğunu vurğulayan M.Auezovun geniş dünyagörüşü, düşüncə tərzi bu epizodda çox rəvan bir tərzdə öz əksini tapır, müəllifin özündən çox-çox əvvəl yazıb-yaradan təsəvvüf təlimindən xəbərdar olduğunu aydınlaşdırır. Abay ziyalıdır, maarifçidir, xalqın bütün adət ənənələrini bilir və ilk təhsilini də mollaxanada alıb, dinin mahiyyətini bildiyi qədər din xadimlərinin iç üzü ilə də tanışdır.

Odur ki, eşqin ilahi bir bəxşiş olduğunu anlayır və atasının qəbahətlərini çəkinmədən ona başa salaraq bir başa şəriət problemini ortaya qoyur. Gerçəkliyin uyğun detallarının əsasında həyat reallığının mahiyyətini açır.

**Müəllif Abayın dili ilə "Qisasül Ənbiyyə"dən, "Qırx hədis"dən, "Layhunamə"dən, Sokrat, Əflatun və Ərəstun kimi filosoflardan nümunələr gətirir. Roman, M.Auezov irsinin öyrənilməsi ilə bərabər Qazax xalqının adət-ənənə və mifologiyası ilə bağlı bir çox problemlərin ictimaiyyətə tanıdılmasına da xidmət edir.**

# Giley-güzar dünyasıdır, Torpaq daşdan gileylənir



*Zaur İlhamoğlu*

### *Nə qədər ki sağam...*

**Nə qədər ki sağam, qədrimi bilin.**
**Bir gün bu dünyadan çıxacağam ha.**
**Ruhum dövr edəcək kəhkəşanları**
**Sizə ulduzlardan baxacağam ha.**

**Yaşamaq bir sevgi, yaşamaq istək.**
**Gəl ki, ölüm də var, bu acı gerçək.**
**Süzülüb gecelər Ay işığıtək,**
**Şirin yuxunuza axacağam ha.**

**"Kaş ki, bu dünyada yaşardı" deyə,**
**Dönəcəm min arzu, minbir diləyə.**
**Şirin xatirəmlə dolub ürəyə**
**Od olub yandırıb-yaxacağam ha.**

**İşdir də baş versə, əgər möcüzə,**
**Gəlsəm o dünyada sizlə üz-üzə.**
**"Qədirbilməz" deyib əl verib sizə**
**Sizin əlinizi sıxacağam ha**

### *Gedəcəm dünyanın o bir başına*

**Gedəcəm dünyanın o bir başına**
**Dünyanın bu başı məni açmadı.**
**Bu başın günləri qaranlıq imiş,**
**Burda gün çıxmadı, işıq saçmadı.**

**Gedəcəm dünyanın o bir başına**
**Burda yaşananlar dərddən seçilmir.**
**Bu yerdə min sifət, min dənə üz var,**
**Buranın qoyunu qurddan seçilmir.**

**Gedəcəm dünyanın o bir başına**
**Bu yerdə gözləri pərdələyiblər.**
**Burda yaxşılığın izi-tozu yox,**
**Burda insanlığı dəfn eləyiblər.**

**Gedəcəm dünyanın o bir başına.**
**Burda müharibə, dava-dalaşdır.**
**Bu yerdə analar sinəsi dağlı,**
**Burda bacıların gözləri yaşdır.**

**Dünya da fırlanır, yerində durmur.**
**Gün keçir..Oyandın yatana kimi.**
**Qorxuram o başı bu başı olar,**
**Mən gedib o başa çatana kimi.**

### *Giley-güzar*

**Giley-güzar dünyasıdır,**
**Torpaq daşdan gileylənir.**
**Qış havası duyulduqca,**
**Payız qışdan gileylənir.**

**Ürək dözmür göynəyəndə,**
**Bir toxunan söz deyəndə,**
**Yerində işlənməyəndə**
**Ağıl başdan gileylənir.**

**Ağacdan bir meyvə düşür,**
**Bağ köksünə qüssə düşür.**
**Göz üstünə kölgə düşür,**
**Kiprik qaşdan gileylənir.**

**Qocalır insan qocalır,**
**Gəncliyini seyrə dalır.**
**Zaman bir kənarda qalır,**
**Ömür yaşdan gileylənir.**

### *Məni öldürmək istəsən...*

**Məni öldürmək istəsən,**
**Ya Rəbb, bu yaşda öldürmə.**
**Ümidlərim, gümanlarım**
**Qalmasın boşda öldürmə.**

**Günlər gördüm nə az, nə çox,**
**Bir günü ac, bir günü tox.**
**Ağılsız can müqəvvadır**
**Canımı al, ağlımı yox.**
**Ağılsız başda öldürmə.**

**Sevincli baxışda öldür,**
**Şirin davranışda öldür,**
**Haqqımda xoş sözdə öldür,**
**Şənimə alqışda öldür,**
**Amma qarğışda öldürmə.**

**Fəsillərdən qış fəsli var**
**Şaxta, boran, soyuğu, qar.**
**Baxma da birdən dəfnimə**
**Gələnlərə soyuq olar.**
**Gəl məni qışda öldürmə.**

### *Mənim ümidlərim*

**Hələ davam edir bu ömür yolu.**
**Dayanır qarşımda demək neçə gün.**
**Qəlbimdə tükənməz ümidlər dolu.**
**Addımlar atıram sabahım üçün.**

**Bu ömür yolumda ümidlərimi,**
**Özümə əvəzsiz yoldaş sanmışam.**
**Mən arxa bilmədim hələ heç kimi,**
**Yalnız ümidimə arxalanmışam.**

**Çünki bilmişəm ki,dara düşəndə,**
**Təkcə ümidindən güc alır insan.**
**Çarəsiz sandığın xəstəlikdən də,**
**Ümidin gücüylə sağalır insan.**

**Mənə yaşamaqçün veribdir ilham,**
**Ötən neçə saat,neçə saniyə.**
**Gecə zülmətindən işıq almışam.**
**Səhərim qaranlıq açılar deyə.**

**Ümidlə yaşadım,ümidlə hər an,**
**Məni qorxutmayıb nə kədər,nə qəm.**
**İçimi acılar sardığı zaman**
**Onda da ümidlə gülümsəmişəm.**

**Mənim ümidlərim ruhuma pərçim.**
**Aldığım,verdiyim nəfəsim mənim.**
**Mənim ümidlərim yaşamaq eşqim**
**Yaşama səbəbim,həvəsim mənim.**

**Ümidim üst qatda,varlığım altda,**
**Bir ömür yaşaram ümidlərlə tən.**
**Çox şeydən vaz keçdim mən bu həyatda,**
**Amma ümidimdən vaz keçmədim mən.**

**Sən də,ey oxucum,nəyisə erkən,**
**"Artıq bitdi" deyib hələ bitirmə.**
**Nələri həyatda itirsən də sən,**
**Çalış ümidini əsla itirmə.**

**Sən güc gələcəksən min dərdə,qəmə**
**Qəlbində bir ümid yarada bilsən.**
**Kimsəsiz olsan da "tənhayam" demə.**
**Ümidin vardırsa,tənha deyilsən.**

### *Otur, dostum...*

**Otur, dostum, mey süzmüşəm,**
**Vuraq ahəstə-ahəstə.**
**Dərdimizi təzələyib,**
**Duraq ahəstə-ahəstə.**

**Oyunu pozdu cığallar,**
**Yenə də qarışdı xallar.**
**Yaşanmayacaq xəyallar**
**Quraq ahəstə-ahəstə.**

**Yorğunluğun varsa, gizlə,**
**Həyat bizi yordu biz də,**
**Bu həyatı dağda, düzdə**
**Yoraq ahəstə-ahəstə.**

**Könül bağdır yox oxşarı,**
**Yetişməkçün bağın barı,**
**Bağı basan kol-kosları**
**Qıraq ahəstə-ahəstə.**

**Sonda gedək qəbiristana,**
**Gör kimlər yatır yan-yana.**
**Hallarını qardaşyana**
**Soraq ahəstə-ahəstə.**

**Ağlama, gözüm, ağlama.**
**Bu nə yaşdır axır belə?**
**Ağlama, gözüm, ağlama.**
**Dönməsin göz yaşın selə,**
**Ağlama, gözüm, ağlama.**

**Özüldən, kökdən yanırsan,**
**Çəkdiyin yükdən yanırsan,**
**Bilirəm içdən yanırsan**
**Ağlama, gözüm, ağlama.**

**Ağladıqca gözlər şişir,**
**Göz yaşın ovcuna düşür,**
**Ağlamaqla nə dəyişir?**
**Ağlama, gözüm, ağlama.**

**Bu oddursa, közü yoxdur,**
**Yuxudursa, yozu yoxdur,**
**Yazılana pozu yoxdur**
**Ağlama, gözüm, ağlama.**

**Gələn gələr, gedən gedər,**
**Dünyadan qəflətən gedər,**
**Heç bilməzsən nədən gedər**
**Ağlama, gözüm, ağlama.**

**Göz yaşların süzüldükcə,**
**Yanağına düzüldükcə,**
**Üzüldüm sən üzüldükcə**
**Ağlama, gözüm, ağlama.**

**Haqq libası geyməz dünya,**
**Mərd olanı öyməz dünya,**
**Göz yaşına dəyməz dünya**
**Ağlama, gözüm, ağlama.**

# "Gülüstan" məclisi üzvlərinin oxucularla onlayn görüşü

**Qubada fəaliyyət göstərən A.A.Bakıxanov adına "Gülüstan" elmi-ədəbi məclisi 185 ildir ki, bizimlə yol gedir. Bu günlərdə Quba Mərkəzləşdirilmiş kitabxana Sisteminin yaxından köməkliyi ilə məclis üzvlərinin oxucularla onlayn görüşü keçirilmişdir. Görüşü məclisin sədri Ş.Seyidməmmədov açaraq qeyd etmişdir ki, biz çox həssas bir dönəmdəyik. Çətin və ağır günlər keçirdik. Son günlər baş verən hadisələr - Tovuz rayonu istiqamətində düşmənin törətdiyi növbəti qanlı təxribat biz gülüstançıları da narahat edir, düşmənə qarşı böyük hiddət doğurur. Lakin biz ordumuzun, gücünü, xalqımızın birliyini, dövlət başçısının qətiyyətli mövqeyini gördük. Bizi sevindirən bir də odur ki, qardaş Türkiyə, Pakistan və s. dövlətlər bizi dəstəklədi, dünya azərbaycanlıları həmrəylik göstərdilər. Allah şəhidlərimizə rəhmət eləsin.**

Daha sonra yenicə işıq üzü görən Hacıbala Mollabəylinin "Daş yaddaşlı Xınalıq, " Səxavət Ənvəroğlunun " Gedirəm " kitablarından söhbət açıldı, həmin kitabların onlayn müzakirəsi keçirildi.

15 nəfərə yaxın "gülüstan"çının qatıldığı onlayn tədbirdə Quba MKS-nin işçiləri, kənd kitabxanalarının müdirləri və başqa oxucular olmaqla 70 nəfərdən çox adam iştirak edirdi.

"Gülüstan"çılar əsasən vətənpərvərlik mövzusunda yazdıqları şeirlərini söyləmiş, oxucuların suallarını cavablandırmışlar.

Axırda məclisin sədri tədbirin təşkilində göstərdiyi köməyə görə MKS-nin direktoru S.Nəsirova minnətdarlığını bildirmiş, məclisin 185 iliyinə həsr edilmiş video-çarxın I hissəsi nümayiş etdirilmişdir.

Aşağıda onlayn tədbirdə söylənilmiş şeirlərin bir qismi ilə "Ədalət" qəzetinin oxucuları da tanış ola bilərlər.

**Şixəmməd Seyidməmmədov,**
**"Gülüstan" elmi-ədəbi məclisin sədri,**
**AYB və AJB-nin üzvü.**

*Qələmşah İdrisov*

### Generalım

*(Şəhid general-mayor Polad Həşimovun xatirəsinə)*

*Azərbaycan ! - Döyüş andın,*
*Örnək oldu Polad adın.*
*Ön cəbhədə mərd dayandın,*
*Qoç Koroğlu, Cavad xanım -*
*generalım!*

*Qisas yerdə deyil qalan,*
*Düşmən yurdu olar talan.*
*Ad qazanan, şəhid olan,*
*Əskərimə qurban canım -*
*generalım!*

*Xalqımız dözmür halına,*
*Gün gələr qisas alınar.*
*Məzara gedən yoluna*
*Gül döşəyim, xalı salım -*
*generalım!*

*Dəfninə gələ bilmədim,*
*Dərdimi bölə bilmədim.*
*Mən niyə ölə bilmədim ?*
*Tanrı qıydı sənsiz qalım -*
*generalım!*

*Silahı almaq vaxtıdır,*
*Tətiyi çaxmaq vaxtıdır.*
*Şuşaya çıxmaq vaxtıdır,*
*İndi budur tək amalım -*
*generalım!*

*Şixəmməd*

### Dur ayağa əziz torpaq !

*Üstündən kəsilib ayaq,*
*Sınıxıb Şuşa qalası.*
*Od tutub yanır Qarabağ,*
*Vətənin həsrət yarası.*

*Qəm bürüyübdü hər yanı,*
*Yurd həsrəti qəlbə girib.*
*İtirib abır-həyasın,*
*Düşmən cilddən-cildə girib.*

*Şirə dönüb yağı düşmən,*
*Böhtan yaxır-arsızlaşıb.*
*Çıxarıbdır ağın düşmən,*
*Köpək kimi diş qıcırdıb.*

*Oğullar vaxtsız qocalar,*
*Ürəyində Qarabağım.*
*Həsrət adlı ox sancılıb,*
*Ürəyimdən, Qarabağın.*

*Düşmən açandan əl-ayaq,*
*Qan ağlayır can vətənim.*
*Dur ayağa, əziz torpaq,*
*Dur ayağa,yurdum mənim !*

# Boyatdan həyata

## (Bədii qiraət ustası, dostum, Əməkdar artist Ağalar Bayramov haqqında bir yarpaq boyu təəssürat)



Yusif Nəğməkar

**Onunla hər dəfə görüşəndə aşiqanəliyində də, şuxluğunda da bir tutqunluq sezirəm. Səbəbini soruşanda deyir ki, qardaş, haçandandır içimdə bir Atəşgah qurmuşam. Mən onu yandırıram, o da məni. Mən onu yatırmaq istəyəndə o, mənim yuxumu ərşə çəkir, oyadır. Bu, hamının bildiyi, amma hər kəsin görə bilmədiyi sənət yanğısı, sənət məbədi, sənət atəşgahıdır. Üstəlik, bu atəşgahı şöləndirən Qarabağ adında nisgilimiz də var. Amma bu nisgil də əriməde, inşallah...**

Mən o günü səbirsizliklə, həyəcanla gözləyirəm ki, işğaldan azad olunan Ağdamda, Şuşada - Cıdır düzündə, xalqın qarşısında Xarıbülbüllərin ətri əhatəsində "Azərbaycan - Türk bayrağı" şeirini oxuyum. Tanrı Azərbaycanımızı, Tanrı türkü qorusun!

İndi sinəsi arzular, ümidlər yatağı, şeir-sənət xəzinəsi olan tanıdığımız qədər də çoxlarının yaxından bələd olmadığı bu dilavər adamın kimlik ünvanına üz tutaq...

***

***Çox qədim və həm də qayım-qədim bir türk qəbiləsinin adaşı Boyat elatının kürə göylüyündə gərməşov çomağını əlində yellədə-yellədə quzu otaran, dünyanın minbir qayğısından uzaq, zamanın çeşidli gəlhagəllərinə belə məhəl qoymayan balaca bir uşaq nə biləydi ki, bir gün Boyatdan boy göstərib körpə və kövrək arzularına boylanan, ümidlərinə təkan verən qaynar bir istedadın daşıyıcısı olacaq. Əsli-kökü bu elatdan olan poeziya azmanı Məhəmməd Füzulinin əsrlərə meydan oxuyan lirik-fəlsəfi qəzəllərinə üz tutub şeir-sənət xəzinəsinə könül bağlayacaq.***

### Bənzərsiz səsi

ilə hamını heyran qoyacaq, adı dillərə düşəcək, seviləcək.Nə biləydi ki, özünə arxa-dayaq bildiyi, onun üçün həm ən yaxın, ən əziz dost, həm də, doğma sirdaş olan nənəsi Mələksimanın həzin-həzin söylədiyi bayıtılar, laylalar, oxşamalar, nəsihətlər gözlərində maraq dolusu atəş yağan, iti diqqətlə hər kəlməsini heca-heca yaddaş çinədanına yığan balaca Ağaların sonralar tükənməz-potensial saxlancına çevriləcək. Körpə həyata, sənətə, hikmətlərə öz uşaq heyrəti ilə böyüyəcək, səs-sorağı doğma Ucarın ucqarlarınadək yayılacaq, sonra isə ev-ev, el-el, şəhər-şəhər, ölkə-ölkə tanınacaq.

Nəticədə Yurdunun, Vətəninin, Xalqının dəyərli sənətkarı kimi qəbul ediləcək...

Boyatdan başlanan həyatında Ağalar şirinlər də gördü, acılar da daddı.Amma, necə deyərlər, ağzının dadını itirmədi.Heç bir dünya təamina baxıb tamsınmadı,vara, varlıya köks ötürmədi. Olanına, qalanına şükür etdi. Həyatla həsbhalından isə qalmadı.Bəzi dost bildiklərindən etibarsızlıq görəndə belə, özünü toparladı, sınmadı. Ustad Bəxtiyar Vahabzadənin ibrətamiz misralarını özünə uçulmaz arxa-dirək, həm də həyati öyrənc hesab etdi:

*Həyat səni güldürəndə gülmüsən,*
*Hünərin var, ağladanda gül, görüm...*

Nəyə də əli çatdısa, ona mübarizlik ruhu, dönməz iradəsi və ən başlıcası, özünə inamı ilə nail oldu.

İllər keçdikcə Ağalar qiymətli kəlamların, dəyərli səslərin sinəsinə baş qoya-qoya məclislər başına dəvət edildi. Sözündən-söhbətindən feyz aldılar. Onu dinləməkdən doymadılar.

Ağalar müəllim bunlarla kifayətlənib qalmadı. Get- gedə öz fəaliyyət dairəsini genişləndirməyə başladı. Ayrı-ayrı filmlərə çəkilişlərə dəvət aldı. Bir necə filmdə baş rola çəkildi. Böyük teatr səhnələrində aparıcı rollarda peşəkar çıxışlar etdi. Poeziya isə onun sənət dünyasının leytmotivinə çevrildiyindən bu müqəddəs və məsuliyyətli yola öz sədaqətini yaşatmaqda davam etdi. Beləliklə, onu qəbul edənlərin sayı da artırdı.Onu daim izləyən pərəstişkarları sənətkarı bir an belə sevgisiz buraxmadılar.

Məhrəm sədasının şərəfinə yığıncaqlara, axar-baxarlı yığnaqlara yığıldılar, İzdihamlı salonlar aşıb-daşdı. Dəstinə güllər tutuldu,başına ətirli alqış çiçəkləri səpildi.

Beləcə, böyük auditoriyalara, geniş salonlara sığmayan bu sevgi get-gedə ürəklərdə özünə əbədi məskən salırdı.Hara da gedirdisə, qəlbində arxasınca bir dolca su atan nənəsinin məhəbbət dolu məhrəm baxışlarını, orta məktəb müəllimlərinin xeyir-duasını özü ilə aparırdı...

### İstedadlı bədii qiraətçi

***Ağalar Bayramov istər şifahi xalq yaradıcılığı nümunələri, istər klassik peoziya seçmələri, istərsə də, müasir şairlərimizin şeirlərini ardıcıl mütaliə edə-edə həm də bu bədii parçaları dəmir yaddaşına həkk etməyi bacaran sənətkarlardandır. Odur ki, dilindəki hikmətlərin nuru onun cöhrəsinə hopub, gözlərinin işığında əks olunur.***

Mən dəfələrlə onun ağzınadək dolu salonlarda dinləyici və tamaşaçılar arasında təbii, qeyri-adi çosqu yaratdığının, sürəkli alqışlarla qarşılandığının şahidiyəm.

Onu xalqa belə sevdirən, məşhurlaşdıran cəhətlər nədir?

Birinci növbədə, onun qürurlu, əyilməz, möhkəm, bütöv, dəyişməz ciddi xarakteri. Bir insan kimi düz sözü çəkinmədən, birbaşa yerində üzə deməsi.Nəyinsə xatirinə əyilib çirkli əllərdən öpə bilməməsi. Yalançı, riayakar,yaltaq və saxtakar adamlardan uzaq olması, sözübütövlüyü və.s.



Digər tərəfdən, sənətinə gəlincə, daim öz üzərində çalışqanlığı. Bunlardan da əvvəl, təbii ki,bənzərsiz, məlahətli, yapışıqlı, cazibədar qaltanlı səsi. (Bu, bədii qiraətçilik üçün mühüm şərtdir). Sonra onun rəvan nitqi və fikri aydın çatdırmaq məharəti...

***Əlbəttə, səs ilahi vergidir. Adam var ki, çox savadlı, məlumatlıdır, amma onu iki-üç dəqiqədən artıq dinləmək olmur, dedikləri də yadda qalmır. Çünki onun səsinin yapışığı, oyadıcılığı yoxdur. Beləsi danışdıqca adamı yuxu basır.***

Ağalar isə çıxış etdikcə insan beynində bir oyanma, təzələnmə baş verir və onu dinləməkdən doymaq olmur. Onun səsində, ifa tərzində dinləyicini cəzb etmək, müvafiq mövzunu dinlətmək, diqqətini əsərin məzmununa yönəltmək gücü vardır.

O, ən mühim dövlət və ümumixalq tədbirlərində aparıcı televerişlərdə mütəmadi olaraq iştirak edir, yorulmadan ədəbi-bədii tədbirlərdə müxtəlif sahələrdə, ordumuzun əsgər və zabitləri qarşısında alovlu, səfərbəredici çıxışları ilə diqqət çəkir.

Yeri gəlmişkən, onu xüsusi olaraq qeyd etmək istəyirəm ki, Ağalar Bayramov uzun illərdir ki, Azərbaycan Müdafiə Nazirliyinin dəvəti ilə hələ uşaqlıqdan geyinmək həvəsində olduğu hərbi paltarda hərbi hissələrdə, ayrı-ayrı cəbhə bölgələrində ordumuzun zabit və əsgərləri qarşısında ardıcıl çıxışlar edərək gənc hərbi qulluqçuların siyasi-ideoloji cəhətdən yetkinləşməsinə xüsusi xidmət göstərir. Öz tribun çıxışları ilə onlara nikbin əhval-ruhiyyə bəxş edir.

### Onunla ilk tanışlığımız

***illər öncə olub və bu tanışlıq sınaqlardan çıxa-çıxa dostluğa çevrilib.***

***2004-cü ildə AYB-nin Natəvan adına klubunda mənim "Alın Yazım" kitabımın təqdimat mərasimində Ağalar da iştirak edirdi və orda ilk dəfə olaraq o, "Papaqçıya" adlı şeirimi söyləyəndə maraq və heyranlıqla hamı onu dinləyirdi.***

2007-ci ildə Azərbaycan radiosunun dəvəti ilə o, mənim elat-tərəkəmə həyatından bəhs edən iri həcmli "Zal ağacı" peoması koloritli bir avazla özünəməxsus tərzdə səsləndirdi. Bu qeyri-adi səsləndirmə barədə radionun yaradıcı kollektivi uzun müddət razılıqla, könül dolusu fərəhlə söhbət acırdılar.

Sonralar onunla yaradıcılıq əlaqələrimiz daha da genişləndi və indi də davam etməkdədir.

Ağalar Bayramov vəznindən asılı olmayaraq (əruz, heca, sərbəst növ) şeiri sadəcə ifa etmir, onu daxilən yaşayır, özününküləşdirir. Hər hansı bir mətni oxuyarkən onun dilində adi sözlər belə, qanadlanır, əlvan don geyib, sanki sehrlənir...

Dinləyiciyə elə gəlir ki, Ağaların söylədiyi şeiri hansısa bir şair yox, onun özü yazıb. Elə bunun nəticəsidir ki, el- obada da, şəhərdə,qonşular, tanış-bilişlər, hətta şəxsi tanışlıqları olmayanlar, onunla təsadüfən rastlaşıb salamlaşanlar belə, Ağalar müəllimə "şair"-deyə müracət edirlər.

Bu yaxınlarda mənim "Azərbaycan-Türk bayrağı" şeirimin studiya səs yazılışında mən də iştirak edirdim. Ağalar şeiri oxuduqca səsi enib- qalxır, dalğalanır, bəzən də gözləri anı olaraq yumulur, haldan-hala düşürdü. Mən şüşə arakəsmənin arxasından ona heyrətlə baxırdım.Böyrümdə əyləşib yazılış prosesini idarə edən səs rejissorunun da barmaqları sanki yazı cihazının düymələri üstündə donmuşdu. Yazılış başa çatanda Ağalar studiyadan qan tər içində çıxdı və özünə gəlmək üçün kresloda əyləşib bir müddət orada dinməzcə qaldı. Bu anlarda o, şeir oxuyan qiraətçidən çox, bir vaqon daşı təkbaşına boşaltdıqdan sonra yorulub dincəlmək istəyən əliqabarlı zəhmət adamını xatırladırdı.Bax budur əsl sənətkarlıq yaşantıları...

Ağalar müəllim şeir söyləyəndə onu qulaq kəsilənlərin susqunluğu həmişə məni düşündürürdü; öz-özümə - görəsən,niyə heç cıqqırını çıxaran, nəfəs çəkən bir nəfər belə yoxdur - deyirdim? Hər dəfə də bu sulaımın cavabını İngilis yazıçısı Rom Landaunun belə bir fikrini xatırlamaqla tapırdım:- Sənət həmsöhbətin susduğu dialoqdur.

Doğrurdan da, Ağalar səhnədən səslənəndə bütün dialoq tərəf sükuta qərq olur. Məhz bu mənzərənin özü onun sənətinin dəyərinə hesablanmış ən ümdə qiymət göstəricisidir. Bu göstəricinin bir adı da var: həqiqi sənətin həqiqət güzgüsü!..

### Mən də bu kiçik təəssürat

- yazımla çalışdım ki, onun yaradıcılığına, az da olsa, bir güzgü tutum. Bunun üçün hər an odundan od aldığı, hərarət payı əxz etdiyi Suraxanı Atəşgahına bitişik, üstünə yan-yana üçrəngli Azərbaycan və Ay-ulduzlu Türk bayraqları sancılmış evinin bağ-bağatlı həyətindən o bayraqların Atəşgahın alov dilləri kimi baş-başa dalğalanan əzəmətli görkəminin uzun müddət seyrinə dalmaqdan doymadım...

***Həmişə oralara yolum düşəndə elə yoldaykən Ağalara telefon açıb deyirəm: - Qardaş, qardaş bayraqlara üz tutmuşam... Sonra onu da əlavə edirəm ki, əzizim, sənin başqa bir sənət bayrağın da xalqın qəlbində dalğalanır!..***

Ağalar Bayramov tükənməz, çağlar bir istedad sahibi olmaqla yanaşı, həm də səmimi, dost, sadə, təvazökar, dəqiq xarakterə malik ziyalı bir insandır. O, hər an özündən çox doğmalarının, dost-tanışlarının, el-obasının, xalqının qayğıları ilə yaşayıb nəfəs alan bir ziyalı, xalqını sevən və və xalqının da əsl sevimlisi olan, hələ də Əməkdar artist adını daşıyan sənətkardır.

**Həyat və yaradıcılıq yolunu düzgün seçmiş və məsuliyyətini bir an belə unutmadığı bu yolda yorulmadan, ardıcıl, inamla, addımlayan dostuma uğurlar diləyirəm.**

---

**"Orduya dəstək" şüarı ilə ordumuzun yanında olduğumuzu göstərmək üçün ürəyi Qarabağla döyünən sənət nümayəndələrimizin fikirlərini öyrənməyə çalışdıq. Onların dediklərini olduğu kimi təqdim edirik.**

**Xalq artisti Mənsum İbrahimov:** "30 ilə yaxındır ki, hamımız həsrətlə 27 sentyabr tarixini gözləyirdik. Ordumuzun əks hücumu nəticəsində torpaqlarımızın bir qismi ermənilərdən geri alındı. Bildiyiniz kimi, mən Ağdamdanam, səsimi də orada qazanmışam. Təsəvvür edin ki, neçə ildir, gecə-gündüz o torpağın həsrətini çəkirdim. Düzdür, tez-tez Ağdamın bizdə olan kəndlərinə gedirdim, əsgərlərimizlə görüşürdüm, amma yenə də içimdə nisgil var idi. Hər il gedib, ad günlərimi Ağdamda məcburi köçkünlərlə qeyd edirdim. Şükür olsun, Allaha ki, bir neçə saat içində erməni dığalarını məhv etdik, bir neçə saat içində 7 kəndi işğaldan azad etdik, Murov dağ yüksəkliyimizi geri aldıq. Azərbaycan ordusu hər şeyə qadirdir. Bizim

## "Bayrağımız Şuşada dalğalanacaq"



heç kimin torpağında gözümüz yoxdur. Biz öz torpaqlarımızı düşməndən azad etməyə çalışırıq. İnanıram ki, yaxın günlərdə bayrağımız Şuşada dalğalanacaq. Bu gün hər birimiz Ali Baş Komandanın ətrafında əsgərik, hər birimiz əsgərə dayağıq, onun arxasındayıq. Ordumuzun qələbə çalması üçün hər birimiz səfərbər olmalıyıq. Mövcud vəziyyət göstərir ki, bütün xalqımız səfərbərdir. Qadınlı, kişili, uşaqlı hər kəs ordumuzun arxasındadır və qələbə sevincini yaşayır. İnanıram ki, qələbə xəbərini Laçından, Şuşadan və digər rayonlarımızdan da eşidəcəyik".

**Əməkdar artist Təyyar Bayramov:** "Neçə ildir, torpaqlarımızın həsrətindəyik. Xoş xəbərləri-torpaqlarımızın işğaldan azad olunması xəbərlərini eşitdikcə, xalqımız sevinc göz yaşlarına qərq olur. Sənət adamının orduya dəstəyi Vətənpərvər ruhda mahnılar ifa etmək olar. Hər zaman repertuarımda bu səpkidə olan mahnılara yer vermişəm. Neçə ildir ki, torpaqlarımız işğal altındadır. 30 ilə yaxındır, müharibə vəziyyətindəyik ki, onun da 17 ilini mən sənətdəyəm. Bu illər ərzində hər zaman Qarabağa aid mahnılara üstlünlük vermişəm. Heç bir zaman "Qarabağ" mövzusu repertuarımdan əksik olmayıb. Dünən (red-27 sentyabr) Ağdamda idim, axşam efirlərim var deyə gəlmişəm, Vətənpərvərlik mövzusunda ifalar etməliyəm. Bir neçə ay öncə könüllü şəkildə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin saytında qeydiyyatdan keçmişəm.

Bizim nizamlı şəkildə ordumuz var, lazım olacaqsa, biz də gedib döyüşəcəyik. Bu gün üçün isə ordumuza dəstək olmaq əlimizdən gəlir. Canımız Vətənə fəda olsun!"

**Feyruz Səxavət:** "Torpaqlarımızın işğaldan azal edilməsi xəbəri bizim çoxdan gözlədiyimiz xəbər idi. Artıq 7 kəndimiz işğaldan azal edilib. Biz öz torpaqlarımızı istəyirik. Təbii ki, "Qarabağ"sız Azərbaycan yoxdur. İnşaAllah, ordumuzun şücaəti ilə bayrağımızı Şuşadan asacağıq. Ən böyük arzum o torpaqları gedib ziyarət etmək, Şuşadan tutmuş Kəlbəcərə, Laçına qədər olan ərazilərimizi qarış-qarış gəzməkdir"

**Rövşən Tahir**

---

## Almaniya millisində və "Real"da ciddi itki



**"Real"ın La Liqanın 3-cü turunda "Betis"lə matçda (3:2) zədələnən futbolçusu Toni Kroosun durumuna aydınlıq gəlib.**

Qol.az xəbər verir ki, 30 yaşlı yarımmüdafiəçinin sağ bud əzələsində dartılma aşkarlandığı bildirilib. Buna görə də Almaniya millisinin də üzvü olan oyunçu 10 - 14 gün yaşıl meydanlardan kənarda qalacaq. Xatırladaq ki, Kross Almaniya yığmasının oktyabrın 7-də Türkiyə ilə yoldaşlıq görüşündə və oktyabrın 10-da UEFA Millətlər Liqasının 3-cü turunda Ukrayna ilə matçda iştirak etməyəcək.

---

## AFFA ölən futbolçu ilə bağlı FİFA və UEFA-ya müraciət etdi

**AFFA Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində həlak olan Şəhriyar Qurbanovla bağlı FIFA və UEFA-ya müvafiq məktublar ünvanlayıb.**

Qol.az xəbər verir ki, bu barədə qurumun saytı məlumat yayıb. Məlumatda bildirilib:"Sentyabrın



27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində həlak olan ailənin üzvlərindən biri - 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov 2017/2018-ci il mövsümündə AFFA-nın təşkilatçılığı keçirilən U-11 Liqasında UGİM (Naftalan) komandasının heyətində çıxış edib. Azərbaycan futbol ailəsinin 13 yaşlı üzvünün həlak olması ilə əlaqədar AFFA dərin hüznlə başsağlığı verir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyir. Şəhriyar Qurbanovun Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olması ilə bağlı AFFA tərəfindən FIFA və UEFA-ya müvafiq məktublar ünvanlanıb".

---

## Fati 8 il sonra Messinin rekordunu təkrarladı



**"Barselona"nın futbolçusu Ansu Fati 8 il sonra Lionel Messinin rekordunu təkrarlayıb.**

**Qol.az xəbər verir ki, 17 yaşlı hücumçu buna La Liqanın 3-cü turunda "Vilyareal"la (4:0) matçda nail olub. O, 15-ci və 19-cu dəqiqələrdə fərqlənməklə dubl edib. Bununla da Fati son 20 ildə Kataloniya klubunun oyunun ilk 20 dəqiqəsində iki qol vurmağı bacaran ikinci futbolçusu olub. "Barselona"da belə nəticə göstərən ilk oyunçu isə Lionel Messidir. Argentinalı oyunçu 8 il əvvəl- La Liqanın 2012/2013-cü illər mövsümündə bunu bacarıb.**

---

## PFL-dən Azərbaycan çempionatı ilə bağlı yeni qərar

**Azərbaycan Premyer Liqasının V turu və Birinci Divizionun I turunun oyunlarının başlama saatlarında dəyişiklik edilib.**

Qol.az xəbər verir ki, bununla bağlı Peşəkar Futbol Liqası qərar verib. Bildirilib ki, yüksək liqanın qarşıdakı turunun oyunları, eyni zamanda I Divizionun ilk turunun matçları erkən saatlarda başlayacaq.

Buna səbəb 28 sentyabr 2020-ci il, saat 00:00-dan etibarən Azərbaycanın bəzi şəhər və rayonlarında hərbi vəziyyətin elan olunmasıdır.

Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Ağstafa, Qazax rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan səhər saat 06:00-dək komendant saatı tətbiq edilib.

Sözügedən ərazilərdə şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilir.




Eyni zamanda, xüsusi giriş-çıxış rejimi tətbiq ediləcək və nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.

Qeyd edək ki, vəziyyətə uyğun olaraq qarşıdakı günlərdə bununla bağlı müvafiq addımlar atıla bilər.

*Premyer Liqa*

**V tur**

**2 oktyabr (cümə)**
**"Sabah" - "Keşlə"**
**"Bank Respublika Arena", 15:30**
**3 oktyabr (şənbə)**
**"Qəbələ" - "Sumqayıt"**
**Qəbələ şəhər stadionu, 14:00**
**"Zirə" - "Neftçi"**
**Zirə İdman Kompleksinin stadionu, 16:00**
**4 oktyabr (bazar)**
**"Qarabağ" - "Səbail"**
**"Azersun Arena", 15:30**

**I Divizion**

**I tur**

**1 oktyabr (cümə axşamı)**
**"Keşlə-2" - "Kəpəz"**
**"ASK Arena", 13:00**
**"Sumqayıt-2" - "Qarabağ-2"**
**"Kapital Bank Arena", (ehtiyat meydança) 15:00**
**"Neftçi-2" - "Sabah-2"**
**Türk Hava Yolları Futbol Mərkəzi, (IV meydança) 15:00**
**2 oktyabr (cümə)**
**"Qaradağ Lökbatan" - MOİK Lökbatan Olimpiya İdman Kompleksinin stadionu, 15:00**
**"Zaqatala" - "Turan Tovuz"**
**Zaqatala şəhər stadionu, 13:00**

---

### Bildiriş

**"Gəncə Bazar" ASC səhmdarlarının nəzərinə!**

**5 oktyabr 2020-ci il saat 10:00-da səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.**

**Gündəlik məsələlər:**

**1. Cəmiyyətin Müşahidə Şurasının sədri və üzvlüyündə dəyişiklik edilməsi və protokolların təsdiqi.**
**2. Cəmiyyətin Nizamnamə kapitalına yenidən baxılması.**
**3. Cəmiyyətin İdarə Heyətinin sədrinin və müavininin dəyişdirilməsi və protokolların təsdiqi.**
**4. Digər cari məsələlərin müzakirəsi.**

**Yığıncağın keçirildiyi ünvan:**
**Gəncə şəhəri, Kəpəz rayonu, Dədə Qorqud küçəsi, ev 20 a**

Nəsimi rayon 44 nömrəli orta məktəb tərəfindən Allahverdiyev Tural Şükür oğlunun adına 2013-cü ildə verilmiş 11 illik Attestat itdiyi üçün etibarsız sayılır.

***

İslamov İsrayıl Heydər oğluna məxsus Kürdəmir rayon, Yenikənd kəndində yerləşən 25 iyun 1998-ci il 06 saylı qərarla verilmiş JN:614, kod 90610018 olan torpağın mülkiyyətə aid Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 28.09.2020